Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 217 (7944) CÜMƏ, 28 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik




# Rusiya Azərbaycan üçün çox mühüm, dəyərli tərəfdaş, dost və qonşu ölkədir

Dünən Azərbaycanda səfərdə olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Prezident İlham Əliyevlə görüşündə iki ölkə arasındakı münasibətlərə nəzər salındı, gələcək əməkdaşlıq perspektivləri ətrafında müzakirə aparıldı. Azərbaycan və Rusiya prezidentlərinin son 3 ayda dördüncü, sentyabrda isə ikinci dəfə keçirilən görüşü, ilk növbədə, iki ölkə arasındakı yüksək və sıx siyasi dialoqun olduğunu göstərdi.

Azərbaycan və Rusiya arasında bu gün qarşılıqlı anlaşma mühiti mövcuddur. Son illərdə isə əlaqələr yüksələn xətt üzrə daha sürətlə inkişaf edib, dövlət başçılarının qarşılıqlı səfərləri əməkdaşlığın genişlənməsinə güclü təkan verib. Prezidentlər arasında bu cür intensiv görüşlərin keçirilməsi həm də Azərbaycan-Rusiya münasibətlərinin strateji mahiyyət daşımasının təsdiqidir.

Azərbaycan və Rusiya prezidentlərinin qarşılıqlı rəsmi və işgüzar səfərlərinin müsbət nəticələri dünən özlərinin qeyd etdikləri kimi təkcə siyasi sferada göstərmir. Belə ki, isti siyasi münasibətlərdən qaynaqlanan əməkdaşlıq telləri beynəlxalq tərəfdaşlıqdan tutmuş iqtisadi və hərbi sahələrə qədər geniş spektri əhatə edir. Ölkələr arasında indiyədək 200-ə yaxın sənəd imzalanıb. Yaradılmış möhkəm hüquqi baza iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, yanacaq-energetika, elm və təhsil, mədəniyyət, idman və digər sahələrdə əlaqələrin genişləndirilməsinə imkan verir.

Son 5 il ərzində Azərbaycan və Rusiya arasında 50-yə yaxın biznes-forum və işgüzar görüşlər keçirilib. Bütün bunlar nəticə etibarilə iqtisadi əlaqələrin inkişafına təkan verib. Dünən keçirilən görüşlərdə qeyd olunduğu kimi, Azərbaycan Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard dollardan artıq investisiya yatırıb. Təkcə 2017-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2,627 milyard dollar olub. Bu ilin birinci yarısında isə ticarət dövriyyəsi 1,4 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 760 birgə müəssisə fəaliyyət göstərir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib.

İki dövlət arasında regionlararası əməkdaşlıq da getdikcə dərinləşir. Bu formatda əməkdaşlıq ölkə prezidentlərinin birgə təşəbbüsü ilə başlayıb və ticari-iqtisadi münasibətlərin inkişafında böyük hadisəyə çevrilib. Əlamətdar haldır ki, növbə ilə Azərbaycanda və Rusiyada keçirilən regionlararası forumlar ölkələr arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə müsbət töhfə verir, qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsinə şərait yaradır. Hazırda Rusiyanın 78 subyekti Azərbaycanla iqtisadi əlaqələr saxlayır. Həm də onlardan 17-si ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq barədə Çərçivə sazişləri bağlayıb. Dünənki görüşlərdə qeyd olunduğu kimi regionlararası əməkdaşlığın potensialı daha böyükdür. İki ölkənin regionları arasında səmərəli əməkdaşlığın dərinləşdirilməsi üçün münbit iqtisadi imkanlar mövcuddur.

Mədəni və humanitar sahələrdə də Rusiya ilə Azərbaycan arasında münasibətlər təqdirəlayiqdir. Hazırda 11 minə yaxın azərbaycanlı tələbə Rusiyada təhsil alır. Onlardan minə yaxını Rusiyanın büdcəsi hesabına oxuyur. Hər il Azərbaycan vətəndaşlarına 200-dən çox təqaüd verilir. 2010-cu ildən Bakıda Lomonosov adına Moskva Dövlət Universitetinin, 2015-ci ildən isə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Humanitar əməkdaşlığa gəldikdə onu da qeyd etmək lazımdır ki, Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu artıq bütün dünyada aktual problemlərin, müasir cəmiyyətlərin inkişaf məsələlərinin müzakirə olunduğu qlobal platforma kimi tanınır.

Rusiya dünyada hərbi məhsulların ən böyük istehsalçılarından biridir. Ona görə hərbi əməkdaşlıq da Azərbaycan-Rusiya münasibətlərinin mühüm istiqamətlərindən biridir. Son illərdə Azərbaycanın xaricdən aldığı silah-sursatın böyük hissəsi Rusiyanın payına düşüb. Artıq Azərbaycanın Rusiyadan aldığı hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları ötüb.

Prezident İlham Əliyevlə Vladimir Putin arasındakı bərqərar olmuş şəxsi dostluq Azərbaycan-Rusiya münasibətlərinin daha da möhkəmlənməsi və dərinləşməsi ilə müşahidə olunur. Bunun nəticəsidir ki, yüksək inkişaf fazasına qədəm qoyan və Cənubi Qafqazın lider dövlətinə çevrilən Azərbaycanın Rusiya ilə münasibətlərində yeni keyfiyyət dəyişiklikləri baş verir. Vladimir Putinin Azərbaycana dünənki səfəri isə əlaqələrin daha da inkişafı ilə bağlı müzakirələrin davamı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Bakıda aparılan danışıqların artıq strateji səviyyəyə yüksəlmiş Azərbaycan-Rusiya münasibətlərinin gələcək inkişafına mühüm təkan verəcəyi şübhəsizdir.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

## Azərbaycan-Rusiya Regionlararası Forumu ikitərəfli münasibətlərin genişmiqyaslı inkişafına mühüm töhfə verir

***Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub.***

***AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak ediblər.***

***Azərbaycan və Rusiya prezidentləri açılış mərasimində çıxış etdilər.***

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Vladimir Vladimiroviç!
Hörmətli qonaqlar!
Əziz dostlar, xanımlar və cənablar!

İlk növbədə, Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putini, eləcə də onu müşayiət edən şəxsləri Azərbaycanda salamlamaq istərdim, xoş gəlmisiniz. Sizi görməyimizə həmişə çox şadıq.

Rusiya və Azərbaycan prezidentlərinin bu gün regionlararası forumda iştirakı həmin forumun fəaliyyətinə nə qədər böyük əhəmiyyət verdiyimizi sübut edir. Bu, IX forumdur. Gələn il yubiley forumu olacaq. Biz şadıq ki, ilk forum 2010-cu ildə Azərbaycanda keçirilib. Bununla da çox fəal regionlararası əməkdaşlığa təkan verilib. Min nəfər tutan bu salonun tamamilə dolması bu foruma nə qədər böyük maraq olduğuna dəlalət edir.

Biz Vladimir Vladimiroviçlə müntəzəm görüşürük. Bu yaxınlarda - sentyabrın əvvəlində mən Rusiya Federasiyasına rəsmi səfər etdim, biz çox məhsuldar danışıqlar apardıq. Gündəliyin bütün məsələləri üzrə çox mükəmməl fikir mübadiləsi oldu. Bir aydan da az müddətdən sonra Rusiya Prezidentinin Azərbaycanda olması bizim aramızda mövcud münasibətlərin parlaq sübutudur. Mənim səfərim çərçivəsində fəaliyyətin əksər sahələrini əhatə edən və uzun illər əvvəlcədən bizim münasibətlərimizin gələcəkdə daha da inkişafını müəyyənləşdirəcək 16 sənəd imzalanmışdır. Həmçinin qeyd etməliyəm ki, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin son 5 il ərzində 4-cü dəfədir ki, Azərbaycanda olur. Mən də müntəzəm olaraq Rusiyaya səfər edirəm, bu da bizim tərəfdaşlığımızın, ölkələrimiz arasında dost, mehriban qonşuluq münasibətlərinin parlaq sübutudur.

Ticari-iqtisadi əlaqələrə gəlincə, biz inkişaf dinamikasını görürük, bu, olduqca güclü təəssürat oyadır, bu, artmaqda olan dinamikadır. Ötən il də, bu il də əmtəə dövriyyəsi artıb. Rusiya Azərbaycan üçün idxal üzrə bir nömrəli tərəfdaşdır və bizim qeyri-neft sektorunun məhsullarının ixracı üzrə də bir nömrəli tərəfdaşdır.

Həmçinin qarşılıqlı investisiyalarla əlaqədar layihələr həyata keçirilir. Biz burada da müsbət dinamikanı görürük. Energetika, neft-qaz sahələrində çox möhkəm əlaqələr mövcuddur. Biz mənim Rusiya Federasiyasına rəsmi səfərim çərçivəsində "Rossneft" ilə SOCAR şirkətləri arasında əməkdaşlıq barədə mühüm sənəd - müqavilə imzaladıq. Eləcə də 20 ildən artıqdır ki, Azərbaycanda "LUKoil" şirkəti uğurla işləyir, bizim üçün mühüm investordur. Elektroenergetika sahəsində bizim enerji sistemləri paralel rejimdə işləyir. Biz mənim sentyabr səfərim çərçivəsində yüksəkgərginlikli elektrikötürücü xəttin ikinci növbəsinin tikintisi ilə bağlı məsələləri müzakirə etdik. Bu xəttin tikintisi elektrik mübadiləsini daha çox nizama salmağa və bu sahədə üçüncü ölkələrlə əlaqələri genişləndirməyə imkan verəcək.

Biz nəqliyyat sahəsində çox fəal əməkdaşlıq edirik. Bizim birgə reallaşdırdığımız "Şimal-Cənub" layihəsi artıq öz nəticələrini verir. Ötən illə müqayisədə biz bu il həmin dəhlizlə yükdaşımaların nəqlinin 100 dəfədən çox artdığını görürük. Həm də bu, yalnız başlanğıcdır. Hesab edirik ki, bu dəhliz Avrasiyanın ən mühüm nəqliyyat xətlərindən biri olacaq, bununla da ölkələrimizin daha da yaxınlaşmasına kömək edəcək və tranzit potensialımızı artıracaq. Həmçinin qeyd etmək istərdim ki, təkcə Azərbaycan milli aviaşirkəti Rusiyanın müxtəlif şəhərlərinə həftədə 50-dən çox reys həyata keçirir. Əgər Rusiyanın aviadaşıyıcılarını da əlavə etsək, biz vətəndaşlarımızın öz aralarında necə ünsiyyət saxladıqlarını və əlaqələrimizin intensivliyini görərik.

Turizm sahəsində də biz Rusiya vətəndaşları tərəfindən Azərbaycanı ziyarətin çox əhəmiyyətli dərəcədə artdığını görürük. Hələ başa çatmamış 9 ay ərzində 700 minədək rusiyalı Azərbaycanı ziyarət edib. Əminəm ki, bu rəqəm də gələcəkdə artacaq.

Bank sahəsində çox yaxşı əməkdaşlıq və perspektivlər mövcuddur. Azərbaycanda VTB kimi iri Rusiya bankı fəaliyyət göstərir. Yeri gəlmişkən, Azərbaycan bu bankın ən iri xarici səhmdarıdır. Həmçinin "Qazprombank" nisbətən bu yaxınlarda Azərbaycanın 400 milyon dollardan artıq dəyəri olan iri sənaye layihəsini maliyyələşdirib. Yəni, bütün bunlar bizim əməkdaşlığımızın mühüm elementləridir.

Maşınqayırma bizim əməkdaşlığımızın nisbətən yeni sahəsidir. Azərbaycanda artıq "KamAZ", "Ural" avtomobilləri buraxılır. Artıq yüzlərlə belə avtomobil konveyerlərdən düşürülüb. Eləcə də bizim ölkəmizdə "QAZ" avtomobillərinin istehsalı haqqında razılıq əldə olunub. Yəni, biz bütün istiqamətlərdə çox səmərəli dinamika görürük və bütün bunlar bizim münasibətlərimizin ruhunu, xarakterini səciyyələndirir.

Əlbəttə ki, bizim münasibətlərimizin təməlində tarixi, mədəni əlaqələrimiz, xalqlarımızın yaxınlığı durur. Əlbəttə, biz birlikdə humanitar əlaqələrin inkişafı üzərində çox fəal işləyirik. Gələn ay Bakıda Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında növbəti humanitar forum keçiriləcək. Bu, beynəlxalq forum artıq humanitar xarakterli məsələlərin, mədəniyyətlərarası dialoqun, konfessiyalararası münasibətlərin müzakirəsi üçün mühüm qlobal meydana çevrilib. Azərbaycanda tədrisin rus dilində aparıldığı 341 məktəb, Rusiyanın aparıcı ali təhsil ocaqları olan Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Həmçinin mədəniyyət sahəsində çox sıx qarşılıqlı fəaliyyət var. Burada Rusiya-Azərbaycan münasibətləri barədə çox danışmaq olar, sadəcə, bugünkü forumun formatına görə hamısını əhatə etmək mümkün deyil. Amma biz münasibətlərin gələcəkdə də fəal inkişafına istiqamətlənmişik. Həmçinin düşünürəm ki, bizim gələcək əməkdaşlığımız çərçivəsində gələn il üçün nəzərdə tutulan Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun açılması mühüm addım olacaq. Bu tarixi bina ötən əsrin ortalarında Azərbaycan pavilyonu olub, biz onu bərpa edirik. Düşünürəm ki, biz belə mühüm beynəlxalq sərgi meydanında iştirak edəcəyik və öz nailiyyətlərimizi nümayiş etdirəcəyik.

Rusiya regionları ilə də bizim çox sıx münasibətlərimiz mövcuddur. Rusiya Federasiyasının 20-yə yaxın subyektinin Azərbaycanla müvafiq razılaşmaları var. Bizim Rusiya regionlarında, eləcə də Rusiya regionlarının Azərbaycanda ticarət nümayəndəlikləri açılır.

Yəni, əminəm ki, regionlararası əməkdaşlıq ölkələrimizi birləşdirən bütün dost, mehriban qonşuluq münasibətləri kompleksini üzvi sürətdə tamamlayacaq.

Mən Prezident Vladimir Vladimiroviç Putinə bu gün Azərbaycanda olduğuna görə təşəkkürümü bildirmək istərdim. Bu, bizim üçün çox qiymətlidir. Biz buna dostluğun, ölkəmizə hörmətin əlaməti kimi baxırıq. Əlbəttə, Sizin qarşınızda çıxış etməyimiz Sizin apardığınız işin əhəmiyyətini nəzərə çarpdırır. Mən foruma uğurlar, ölkələrimizin və xalqlarımızın rifahı naminə gələcək nailiyyətlər arzulayıram. Sağ olun.

**Bax: səh. 2**

## 5 ildə 3 peyk

*"Azerspace 2" peykinin orbitə göndərilməsi İlham Əliyevin ardıcıl tarixi nailiyyətlərinin davamıdır*

İstənilən ölkə və cəmiyyətin dinamik tərəqqisini şərtləndirən, fundamental əhəmiyyətə malik əsas məqamlardan biri də informasiya-kommunikasiya texnologiyaları ilə bağlıdır.

Elə bu səbəbdən də Azərbaycanda prioritet istiqamətlərdən hesab olunan kosmik sənayenin inkişafı istiqamətində mühüm addımlar atılır, informasiya-telekommunikasiya sektorunda irimiqyaslı layihələr həyata keçirilir. Sentyabrın 26-sında Fransız Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən "Azerspace 2" peykinin uğurla orbitə buraxılması bunu təsdiqləyən faktordur.

**Ardı 7-ci səh.**



## Tramp Paşinyanla görüşmədi, Putin isə Yerevana səfərini təxirə saldı

### ABŞ rəsmilərindən heç kəsin qəbuluna düşə bilməyən Ermənistanın baş naziri növbəti zərbəni Rusiya Prezidentindən aldı

Ermənistanda baş nazir Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra bu ölkənin onsuz da bərbad gündə olan xarici siyasətində indi daha ciddi problemlər müşahidə edilməkdədir. Artıq demək olar ki, Ermənistanın heç bir ölkə ilə normal münasibətləri yoxdur və əvvəlki hamiləri gah nala, gah da mıxa vuran Yerevandan tədricən imtina etməyə başlayırlar. Bütün bunların nəticəsidir ki, Paşinyan demək olar ki, bütün xarici səfərlərində daim pərt vəziyyətə düşür. Bu onun son Rusiya və ABŞ səfərlərində də aydın müşahidə edildi.

Görünən odur ki, Ermənistanın bir dövlət kimi varlığını borclu olduğu Rusiyaya xəyanəti Moskvada heç də xoş qarşılanmır. Elə Rusiya prezidenti Vladimir Putinin Ermənistana səfərinin təxirə salınmasının arxasında duran əsas səbəblərdən birinin məhz bu olduğu vurğulanır.

**Ardı 7-ci səh.**

# Azərbaycan-Rusiya Regionlararası Forumu ikitərəfli münasibətlərin genişmiqyaslı inkişafına mühüm töhfə verir





## Prezident Vladimir Putinin çıxışı

- Hörmətli İlham Heydər oğlu!

Dostlar, xanımlar və cənablar!

Azərbaycan Prezidenti kimi, mən də bu gün belə mötəbər auditoriyaya bir neçə kəlmə demək imkanımız olduğu üçün məmnunluğumu ifadə etmək istəyirəm. IX regionlararası forum əslində, onu göstərir ki, biz bütün bu illər ərzində nəinki hədər vaxt itirməmişik, biz fəal işləmişik, həm də bütün istiqamətlərdə. Bu da öz nəticələrini verir. Mən bəzi məsələləri təkrar edəcəyəm, bəzilərini əlavə olaraq xatırladacağam. Amma hər halda bu salonda həm elm, həm yaradıcı ziyalılar, həm biznes nümayəndələri, həm siyasətçilər toplaşıblar və bütün bunlar birlikdə yüksəlişə doğru yaxşı nəticələr verir.

Qeyd edim ki, regionlararası əlaqələr bizim dövlətlərarası münasibətlərimizin mühüm tərkib hissəsidir. Rusiya Federasiyasının təxminən 70 regionu Azərbaycanın regionları ilə sıx işləyir. Burada liderlər, sözsüz ki, Moskva vilayəti, Sankt-Peterburqdur, amma təkcə onlar yox, həm də Stavropol, Krasnodar diyarları, Həştərxan vilayəti, Nijeqorod, Çelyabinsk, Volqoqrad, Saratov, Sverdlovsk vilayətləri.

Bütövlükdə, Rusiya ilə Azərbaycan arasında münasibətlərdən danışarkən qeyd etmək istərdim ki, dövlətlərimiz arasında münasibətlər, sözsüz ki, mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurulur. Biz həmişə maraqlar balansı axtarırıq və onu tapırıq. Azərbaycan Prezidentinin indicə haqqında dediyi bu yaxınlardakı Soçi danışıqlarının gedişində, sözsüz ki, bizim dövlətlərarası əlaqələrimizin gələcək quruculuğu üçün əlavə normativ baza yaradan bir sıra sənədlər, razılaşmalar imzaladıq. Qeyd edim ki, indi Azərbaycan bazarında artıq Rusiyanın iştirakı ilə təxminən 700 birgə şirkət fəaliyyət göstərir. Birbaşa Rusiya sərmayələrinin ümumi həcmi isə bir milyard yarım dollardan çox təşkil edir. Qarşılıqlı, səmərəli biznes əlaqələrinin qurulmasına Rusiya-Azərbaycan İşgüzar Şurası böyük kömək göstərir. Təkcə ötən il bu şura ümumilikdə yarım milyard dollara yaxın məbləğdə dəyəri olan 42 birgə layihəni dəstəkləyib. Azərbaycanda Rusiyanın energetika korporasiyaları uğurla işləyirlər. Bu barədə artıq deyilib, "Rosneft" şirkəti Azərbaycanın Dövlət Neft Şirkəti ilə birgə yaxın vaxtlarda "Qoşadaş" neft-qaz yatağının kəşfiyyatına və mənimsənilməsinə başlayacaq. "LUKoil" Azərbaycanın enerji layihələrinə 4 milyard dollara yaxın sərmayə qoyub. Bu barədə də burada deyildi. Bizim neftin nəqli üzrə gələcək inhisarımız olan "Transneft" Azərbaycan neftinin Bakı-Novorossiysk neft kəməri ilə ixracının etibarlı tranzitini təmin edir.

Biz maşınqayırma sahəsində kooperasiyanın dərinləşdirilməsi üçün yaxşı imkanlar görürük. Bu barədə də artıq bu gün danışılıb. "KamAZ" işləməyə başlayıb. Orada artıq texniki yığım və avtomobillərə xidmət həyata keçirilir. "Avtovaz" "Lada" avtomobillərinin satışı üzrə Azərbaycanın bütün regionlarında geniş pərakəndə şəbəkə yaradıb. Respublikada 40-dan çox şöbə yaradılıb. Öz növbəsində, Azərbaycandan olan sərmayədarlar Rusiyada kənd təsərrüfatı obyektlərinin inşasında iştirak edirlər. Onların arasında məsələn, Nijeqorod vilayətində istixana kompleksidir. Sərmayələrin həcmi milyard rubldan artıq təşkil edir. Eləcə də Krasnodar diyarında ərzaq məhsulları buraxılışı üzrə birgə müəssisəni misal çəkə bilərəm.

2017-ci ildə Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiyaya satışı demək olar 12 faiz artıb. Bu, yarım milyard dollarlıq ümumi həcmdir. Bizim tərəfdaşlarımız bu sahəyə yüksək maraq göstərirlər. 30-dan çox Azərbaycan şirkətinin sentyabrın 17-dən 20-dək Moskvada Beynəlxalq Ərzaq Sərgisində iştirakı buna sübutdur.

Rusiya və Azərbaycan birgə infrastruktur layihələri həyata keçirirlər. Məsələn, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin yaradılması davam edir. Bu, Avropa və Asiya bazarlarını yaxınlaşdırmağa yönələn, İran, Azərbaycan və Rusiyadan keçən dəhlizdir. Bu miqyaslı, həqiqətən, irimiqyaslı böyük iş, yaxud təşəbbüs çərçivəsində ölkələrimizin inşaatçıları Samur çayı üzərində sutkada 37 mindən çox maşın buraxmaq qabiliyyəti olan yeni körpü tikirlər.

Xəzər dənizinin statusu haqqında konvensiya da bizim dövlətlərimiz arasında qarşılıqlı faydalı kooperasiya üçün yeni imkanlar açıb. Sözsüz ki, bu, irəliyə doğru gedən qərardır. Sözsüz, orada hamının işləməsi, tammiqyaslı implementasiyaya nail olmaq üçün çox iş görmək lazımdır. Amma artıq mövcud sənədlərin imzalanması Xəzər regionunda əməkdaşlıq üçün bizə yaxşı baza yaradır. Ümid edirik ki, Rusiya və Azərbaycan şirkətləri Xəzər regionunda perspektivli layihələrin reallaşdırılması ilə fəal məşğul olacaqlar. İlk növbədə, nəqliyyat, yük daşımaları, neft-qaz hasilatı, ekologiya və sözsüz ki, Xəzərin bioehtiyatlarının və biomüxtəlifliyinin qorunması sahəsində.

Turizm sahəsində ikitərəfli əlaqələr intensiv inkişaf edir. Yeri gəlmişkən, Azərbaycan sahibkarlarının sayəsində Yessentukidə sanator-kurort mərkəzi inşa edilib. Jeleznovodskda mehmanxana kompleksi ucaldılır. Həmçinin Xəzərdə birgə dəniz kruiz səyahətlərini inkişaf etdirməyi planlaşdırırıq.

Əlbəttə, Rusiya və Azərbaycan humanitar əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verirlər. Azərbaycan Prezidenti bu barədə indicə danışdı. İndicə səsləndiyi kimi, Bakıda bizim iki iri ali məktəbin - Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları fəaliyyət göstərir. Elmi və tələbə mübadilələri genişlənir. Rostovun Nəqliyyat Yolları Universiteti, Həştərxan Universiteti azərbaycanlı tərəfdaşlarla yüksək peşəkar kadrların hazırlanmasına dair proqramlar işləyib hazırlayırlar, ilk növbədə, iqtisadi ixtisaslar üzrə. Biz sözsüz ki, ölkələrimizin təhsil, mədəniyyət və elm sahələrində əlaqələrini gələcəkdə də hər cür stimullaşdırmaq niyyətindəyik. Xüsusilə qeyd edirəm, biz Prezidentlə Soçidə də bu haqda danışmışıq. Biz bunu görürük və biz bunu - Azərbaycanda rus dilinə marağı yüksək dəyərləndiririk. Həm də təkcə Azərbaycan vətəndaşlarının rus dilinə marağını yox, eyni zamanda, dövlət, şəhər bələdiyyələri tərəfindən köməyi yüksək dəyərləndiririk. Biz bütün bunların hamısını görürük. Prezidentin haqqında dediyi 300-dən çox məktəb əlbəttə, bazadır, amma ən əsas baza insanların ürəyində, beyinlərindədir. Bu, əməkdaşlığa, əlaqələrin qorunmasına və inkişafına aşkar cəhd deməkdir.

Hörmətli dostlar və həmkarlar. Mən Rusiya və Azərbaycan regionlarının fəal iştirak etdiyi, ölkələrimizin qarşılıqlı fəaliyyətinin yalnız bəzi istiqamətlərinə toxundum. Əməkdaşlıq üçün imkanlar həqiqətən, çox genişdir. Həm də regional səviyyədə bizim qarşılıqlı fəaliyyətimizin konkret istiqamətlərini, ilk növbədə, siz - bu salonda toplaşanlar və sizin yerlərdəki həmkarlarınız müəyyənləşdirir. Mən sözsüz ki, sizə bu işdə hər cür uğurlar arzulamaq istəyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Forum işini plenar iclasda müzakirələrlə davam etdirib.

# Bir ayda ikinci görüş

## Azərbaycan-Rusiya strateji tərəfdaşlığı İlham Əliyevlə Vladimir Putinin şəxsi dostluğu əsasında davamlı möhkəmlənir





Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Rusiya prezidentləri görüşdə çıxış etdilər.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Hörmətli Vladimir Vladimiroviç, icazə verin, Sizi Azərbaycanda bir daha salamlayım, xoş gəlmisiniz.

Biz Sizi görməyimizə həmişə çox şadıq. Sizin bugünkü səfəriniz xüsusi xarakter daşıyır. Biz bu gün ilk dəfə olaraq rekord miqdarda - minə yaxın iştirakçı toplayan Azərbaycan-Rusiya Regionlararası Forumunun işində iştirak edirik. Bu da tədbirə göstərilən böyük marağa dəlalət edir. Biz Sizinlə bu ayın əvvəlində Soçidə görüşmüşdük, bu gün isə Bakıda görüşürük. Bu, bizim münasibətlərimizin səviyyəsinin parlaq göstəricisidir. Biz həm siyasi, həm də iqtisadi, nəqliyyat, energetika, humanitar sahələrdə fəal əməkdaşlıq edirik. Biz bütün istiqamətlərdə böyük tərəqqi görürük. Biz bu barədə indicə forum iştirakçılarına danışdıq, bununla onlara daha fəal işləmələri və əməkdaşlığımızı inkişaf etdirmələri üçün daha bir impuls verdik. Rusiya bizim üçün münasibətlərimizin ən yüksək səviyyədə olduğu çox mühüm və dəyərli tərəfdaş, dost və qonşudur. Düşünürəm ki, gələcək illərdə biz əməkdaşlığımızı yalnız inkişaf etdirmək, ölkələrimizin biznes qurumları üçün daha yaxşı şərait yaratmaq və bütün istiqamətlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək yolu ilə gedəcəyik. Bir daha "Xoş gəlmisiniz!" deyir və səfərə görə təşəkkür edirəm.



* * *

Rusiya Federasiyasının Prezidenti **Vladimir PUTİN** dedi:

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu!

Bakıya dəvətə və cüdo üzrə dünya çempionatında olmaq imkanına görə çox sağ olun. Mən bunun necə layiqli, çox yüksək beynəlxalq səviyyədə təşkil edildiyini, təşkilatçıların, cənab Vizer başda olmaqla Cüdo üzrə Beynəlxalq Federasiyanın məmnunluğunu görürəm. Mənə indi burada hər şeyin necə peşəkarlıqla təşkil edildiyini dedilər. Bu, təkcə cüdonun deyil, bütövlükdə dünya idmanının inkişafına böyük töhfədir.

Əlbəttə ki, bu gün regionlararası forumda bizim iştirakımız da bu qısa işgüzar səfərin əhəmiyyətli tərkib hissəsidir. Doğrudur, biz bu yaxınlarda Soçidə görüşdük, amma münasibətlərimizin yüksək səviyyəsini və həcmini nəzərə alaraq, bizim həmişə danışmağa sözümüz var. Necə deyərlər, MDB-nin sammiti meydanlarında da ünsiyyətimiz gözlənilir. Amma şübhəsiz, çox əladır ki, bu şəraitdən istifadə edərək ikitərəfli münasibətlər haqqında danışmaq imkanı var. Biz hələ Soçidə qeyd etmişdik ki, münasibətlərimiz həm iqtisadiyyat, həm də digər sahələrdə müsbət inkişaf edir. İndi gərək elə edək ki, Sizin Rusiyaya səfərinizin gedişində bizim qarşılıqlı fəaliyyətimizə verilən impuls itməsin və Sizinlə imzaladığımız çox əhəmiyyətli sənədlər işləsin. Düşünürəm ki, biz bu gün elə bu barədə danışacağıq. Sağ olun.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin söhbətlərini çay süfrəsi arxasında davam etdirdilər.

# Azərbaycan, Rusiya və Monqolustan prezidentləri cüdo üzrə dünya çempionatının qarışıq komanda yarışlarına baxıblar

Sentyabrın 27-də cüdo üzrə dünya çempionatı çərçivəsində qarışıq komanda yarışları keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri, ölkəmizdə işgüzar səfərdə olan Rusiya Prezidenti Vladimir Putin, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer yarışlara baxıblar.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizə işgüzar səfərə gələn Rusiya Prezidenti Vladimir Putini qarşıladı.

Rusiya Prezidenti Azərbaycan Prezidentinin ailə üzvləri, Monqolustan Prezidenti və Beynəlxalq Cüdo Federasiyasının prezidenti ilə görüşdü.

Bakıda keçirilən cüdo üzrə dünya çempionatının sonuncu günündə komanda yarışlarına start verildi. Yaponiya, Koreya və Fransa komandaları gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmalardan sonra yarımfinala vəsiqə qazandılar. Bunun ardınca Almaniya ilə qarşılaşmadan qalib ayrılan Rusiya yığması da yarımfinala çıxdı. Finalda Yaponiya və Fransa komandaları üz-üzə gəldilər.

Azərbaycan yığmasının çıxışlarına gəlincə, Avstriya ilə qarşılaşmada rəqibini 5:1 hesabı ilə məğlub edən cüdoçularımız dörddəbir finalda Yaponiya yığmasına uduzdular. Ancaq seçməmiz təsəlliverici görüşdə iştirak hüququ qazandı və onun rəqibi Niderland yığması oldu. Bu mərhələdə Azərbaycan yığması rəqibindən üstün olmağı bacardı. Millimiz 4-2 hesabı ilə qalib gələrək çempionatın bürünc medalı uğrunda mübarizəyə vəsiqə qazandı.

Azərbaycan millisi Bakıda keçirilən cüdo üzrə dünya çempionatında fərdi yarışları 11-ci pillədə başa vurub. Komandamızın üzvlərindən Uşangi Kokauri gümüş, Hidayət Heydərov isə bürünc medal qazanıb.

Bakıdakı dünya çempionatında cəmi 22 ölkə medal qazana bilib, 14 qızıl medalın yarısı Yaponiyanın olub. Qalan qızıl medallardan 2-si Koreya Respublikasına, hərəyə 1 medal Fransa, Gürcüstan, İran, Ukrayna və İspaniyaya nəsib olub. Mundialda 125 ölkədən 800-dək cüdoçu mübarizə aparırdı.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan yığmasının üzvləri ilə görüşdülər.

İdmançıları təbrik edən Prezident **İlham ƏLİYEV** dedi:

- Sizi bu gözəl qələbə münasibətilə təbrik etmək istəyirəm. Bizim idmançılarımız gümüş və bürünc medal qazanıblar. Digər idmançılarımız da çox gözəl döyüş nümayiş etdiriblər, komandamız da qabaqcıl komandalar arasındadır. Bütün bunlar çox böyük nailiyyətlərdir, Azərbaycan cüdo məktəbinin böyük uğurudur və Siz bütün xalqımızı sevindirirsiniz.

Cüdo üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi özlüyündə böyük bir hadisədir.













Bu, onu göstərir ki, Azərbaycan dünya miqyasında uğurlu inkişaf yolunda çox böyük addımlar atıb. Əlbəttə, siz hamınız istəyirdiniz ki, idmançılarımız gözəl döyüş nümayiş etdirsinlər, belə də oldu. Həm medallar qazanıldı, həm də medal qazanmayan idmançılarımız çox ləyaqətli döyüş nümayiş etdirdilər. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik etmək, sizə yeni uğurlar arzulamaq istəyirəm. Onu da qeyd etməliyəm ki, sizin komanda yarışında döyüşləriniz hələ davam edəcək, siz bürünc medal uğrunda döyüşəcəksiniz, rəqibiniz də çox güclüdür. Əlbəttə, biz hamımız sizə uğurlar arzulayırıq.

Onu da bilməliyik ki, bu, idmandır, idmanda qələbə də olur, məğlubiyyət də. Əsas odur ki, bizim idmançılarımız ləyaqətli döyüş nümayiş etdirsinlər. Fəxr edirik ki, bizim görkəmli cüdoçularımız var. Elnur, Nazim, Elxan, Olimpiya, dünya çempionları, Natiq, veteranlar sizin üçün böyük nümunədir. Mehman da yadımdadır, Olimpiya Oyunlarında biz onun döyüşlərini böyük maraqla izləmişik. Ona görə hesab edirəm ki, bizim cüdoçularımız bundan sonra da ancaq irəliyə gedəcək, xalqımızı, Vətənimizi sevindirəcəklər.

Sonra çıxışını rus dilində davam etdirən Prezident **İlham ƏLİYEV** dedi:

- Bizim komandada elə uşaqlar var ki, onlar Azərbaycan dilini o qədər də yaxşı bilmirlər. Buna görə mən onlara da müraciət etmək, onları uğurları, nailiyyətləri münasibətilə təbrik etmək istərdim. Siz ölkəmizi həmişə ləyaqətlə təmsil etmisiniz və xalqımızı sevindirmisiniz. Sizi təbrik edirəm və gələcəkdə sizə uğurlar diləyirəm.

* * *

Xatirə şəkilləri çəkdirildi.

* * *

Prezident Vladimir Putin də Rusiya yığmasının üzvləri ilə görüşdü.

* * *

Daha sonra Prezident İlham Əliyev çempionatda iştirak edən və mükafat qazanan Azərbaycan yığmasının üzvlərindən, cüdo üzrə Olimpiya çempionlarından və məşqçi heyətindən bir qrupunu Rusiya Prezidenti Vladimir Putinə təqdim etdi.

# Azərbaycan Prezidenti İlham Əliyev Tacikistana səfərə gedib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün sentyabrın 27-də Tacikistan Respublikasına səfərə gedib.

AZƏRTAC xəbər verir ki, Düşənbə şəhərinin beynəlxalq aeroportunda Prezident İlham Əliyevi Tacikistanın Baş nazirinin müavini Azim İbroxim və digər rəsmi şəxslər qarşıladılar.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin sentyabrın 27-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

* * *

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycan Respublikasına işgüzar səfəri sentyabrın 27-də başa çatıb.



# Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib

## *Forum çərçivəsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının iclası olub, əməkdaşlığa dair saziş imzalanıb*

Sentyabrın 27-də Bakıda, Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın İqtisadiyyat Nazirliyi və Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumda Azərbaycan və Rusiya tərəfdən dövlət qurumlarının, parlamentlərin, icra hakimiyyəti orqanlarının nümayəndələri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlar və mətbuat işçiləri iştirak ediblər.

Forum çərçivəsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının geniş tərkibdə iclası keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, sənaye, tikinti, bank, qida, maşınqayırma, metallurgiya, nəqliyyat, əczaçılıq və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.

İclasda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri **Şahin Mustafayev** belə formatda keçirilən tədbirlərin işgüzar dairələr arasında birbaşa əlaqələrin qurulması və qarşılıqlı faydalı layihələrin həyata keçirilməsi üçün mümkün əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi baxımından əlverişli platforma olduğunu vurğulayıb. Nazir qeyd edib ki, Azərbaycan-Rusiya əlaqələri qarşılıqlı hörmət, mehriban qonşuluq prinsiplərinə əsaslanır və strateji tərəfdaşlıq səviyyəsindədir. Dövlətlərimizin başçıları ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına böyük önəm verir. Prezidentlərin, rəsmi nümayəndə heyətlərinin və iş adamlarının çoxsaylı qarşılıqlı səfərləri bunun əyani göstəricisidir. Bu il sentyabrın 1-də Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri çərçivəsində dövlət başçıları ticarət-iqtisadi əlaqələrin hazırkı vəziyyətini hərtərəfli təhlil edib, bu sahədə gələcək əməkdaşlıq üçün prioritetlər müəyyənləşdirilib, 6-sı biznes dairələr arasında olmaqla, ümumilikdə 17 sənəd imzalanıb.



"Azərbaycan-Rusiya əlaqələrinin mühüm istiqamətlərindən biri də ticarət əməkdaşlığıdır və bu sahədə müsbət artım dinamikası müşahidə edilir. Rusiya idxalda Azərbaycanın əsas tərəfdaşı, qeyri-neft məhsullarımızın ixracında isə ilk sıradadır. Ölkələrimiz arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün kompleks tədbirlər görülüb. Rusiya Federasiyasında Azərbaycanın ticarət nümayəndəliyinin yaradılması, Həştərxanda Azərbaycan Biznes Mərkəzinin, Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması, qarşılıqlı ticarət missiyalarının həyata keçirilməsi və şirkətlərin ölkələrimizdə keçirilən beynəlxalq sərgilərdə iştirakı belə tədbirlərdəndir. Hazırda Rusiyanın Moskva, Sankt-Peterburq, Yekaterinburq və Həştərxan şəhərlərində Azərbaycanın ticarət, şərab və çay evlərinin açılması istiqamətində tədbirlər görülür" - deyə Şahin Mustafayev bildirib.

Qarşılıqlı investisiya qoyuluşu sahəsində də fəal əməkdaşlıq həyata keçirildiyini vurğulayan nazir deyib: "Azərbaycan Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox, Rusiya isə Azərbaycana 4 milyard dollardan artıq investisiya qoyub. Azərbaycanda təqribən 760 Rusiya kapitallı şirkət fəaliyyət göstərir. "SOCAR Polymer" layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın "KamAZ" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin reallaşdırılması, Azərbaycan şirkətlərinin Rusiyada həyata keçirdiyi layihələr, o cümlədən Yessentukidə "İstoçnik" sanatoriya-turizm mərkəzi, Krasnodarda meyvə-tərəvəz konservləri və çay istehsalı zavodu, Jeleznovodskda və Kislovodskda sanatoriya-mehmanxana kompleksinin tikintisi və digər layihələr qarşılıqlı investisiya qoyuluşu sahəsində uğurlu layihələrdəndir".

Azərbaycanın Rusiya ilə ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığın davam etdirilməsində maraqlı olduğunu vurğulayan Şahin Mustafayev bu sahədə Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının əhəmiyyətli rol oynadığını qeyd edib, sənaye, energetika, turizm, nəqliyyat, kənd təsərrüfatı, İKT və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu diqqətə çatdırıb.

Rusiyanın iqtisadi inkişaf naziri **Maksim Oreşkin** IX Azərbaycan-Rusiya Regionlararası Forumunun Bakıda keçirilməsindən məmnunluğunu bildirib, ölkələrimiz arasında ticarət-iqtisadi əlaqələrin inkişaf etdiyini, əməkdaşlığın daha da genişləndirilməsi üçün müvafiq tədbirlərin görüldüyünü qeyd edib. O deyib ki, kənd təsərrüfatı, nəqliyyat, sənaye və sair sahələrdə əməkdaşlıq imkanları genişdir və bu baxımdan işgüzar şuraların fəaliyyəti önəmlidir.

M.Oreşkin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafında regional əməkdaşlığın genişləndirilməsinin önəmli olduğunu deyib və bu baxımdan forumun əhəmiyyətini diqqətə çatdırıb.

Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri **Səməd Qurbanov** Rusiyanın Azərbaycanın əsas iqtisadi-ticarət tərəfdaşlarından olduğunu vurğulayıb, təmsil etdiyi işgüzar şuranın fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, işgüzar şura iş adamları arasında əlaqələri genişləndirmək, işgüzar dairələr və dövlət qurumları arasında dialoq qurmaq, yeni əməkdaşlıq imkanlarını araşdırmaq məqsədilə yaradılıb. Azərbaycan-Rusiya İşgüzar Şurasında kənd təsərrüfatı, sənaye, logistika, nəqliyyat, bank, neft-kimya sahələrində iri, eləcə də kiçik və orta biznes nümayəndələri təmsil olunur.

Səməd Qurbanov Azərbaycan iş adamları tərəfindən Rusiyada həyata keçirilən layihələr barədə də məlumat verib.

Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri **Aleksey Repik** isə çıxışında işgüzar şuraların fəaliyyətinin ölkələrimiz arasında əlaqələrin inkişafında əhəmiyyətli olduğunu qeyd edib.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini **Eldar Əzizov** və Rusiya Federasiyasının Novqorod vilayətinin qubernatoru **Andrey Nikitin** çıxışlarında Bakı və Novqorodun potensialı, bu şəhərlərdə görülən işlər və regional əməkdaşlıq imkanları barədə məlumat veriblər.

"Azərmaş" şirkətinin sədri **Emin Axundov,** "Qazprombank"ın vitse-prezidenti **Aleksey Çiçkanov** və digər şirkət təmsilçiləri isə ölkələrimiz arasında müvafiq sahələrdə əməkdaşlıq, reallaşdırılan birgə layihələr və əlaqələrin genişləndirilməsi perspektivləri barədə danışıblar.

Sonra Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları arasında əməkdaşlığa dair saziş imzalanıb. Sənədi Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov və Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repik imzalayıblar.

Forum işini Heydər Əliyev Mərkəzində və Bakı Biznes Mərkəzində təşkil olunmuş 7 istiqamət üzrə (sənaye və energetika, turizm, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, nəqliyyat və tranzit, qadın sahibkarlığı və humanitar sahələrdə) "dəyirmi masa"larla və plenar iclasla davam etdirib.

# Forumun "dəyirmi masa"larında Azərbaycan-Rusiya əməkdaşlığının aktual məsələləri müzakirə olunub








### Sənaye və energetika: ikitərəfli əlaqələrin perspektivləri

Heydər Əliyev Mərkəzində keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forum çərçivəsində təşkil olunan **"Sənaye və energetika: ikitərəfli əlaqələrin perspektivləri"** mövzusunda "dəyirmi masa"da hər iki tərəfdən dövlət və özəl sektoru təmsil edən nümayəndələr iştirak ediblər.

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanın sənaye potensialı, uğurla həyata keçirilən sənayeləşmə siyasəti, ölkəmizdə yaradılan sənaye parkları və məhəllələri, bu sahədə Rusiya ilə birgə həyata keçirilən layihələr və əməkdaşlıq imkanları barədə məlumat verib. Nazir qeyd edib ki, Rusiya ilə birgə Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer", Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsi layihələri həyata keçirilir, Gəncə Avtomobil Zavodu Rusiyanın "KamAZ" və "Ural" zavodları ilə əməkdaşlıq edir, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələr reallaşdırılır.

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin isə çıxışında sənaye sahəsində əməkdaşlıq imkanlarına dair fikirlərini bölüşüb, bu sahədə əlaqələrin genişləndirilməsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının fəaliyyətinin əhəmiyyətini qeyd edib.

Azərbaycanın iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov ölkələrimizin sənaye potensialından və bu sahədə fəaliyyət göstərən müəssisələr arasında əməkdaşlıqdan danışıb.

Energetika nazirinin müavini Samir Vəliyev Azərbaycan-Rusiya enerji əməkdaşlığından, əlaqələrin genişləndirilməsi potensialından bəhs edərək, Azərbaycan və Rusiya arasında birgə yeni elektrik ötürücü xətləri tikintisinin mümkünlüyünü bildirib. O, Azərbaycan-Rusiya enerji əməkdaşlığı üzrə işçi qrupunun iclasının oktyabrın 5-6-da Moskvada keçiriləcəyini deyib.

Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repik isə sənaye sahəsində iki ölkə arasındakı mövcud əməkdaşlıqdan danışıb, birgə layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

"Dəyirmi masa"da müxtəlif dövlət qurumlarının və şirkətlərin nümayəndələri birgə əməkdaşlıq məsələlərini müzakirə edib, təqdimatlar keçiriblər.

### Turizm sahəsində əməkdaşlığın inkişafı

Forumun **"Turizm sahəsində əməkdaşlığın inkişafı"** mövzusunda "dəyirmi masa"sında Azərbaycan və Rusiya tərəfindən dövlət qurumlarının və turizm şirkətlərinin nümayəndələri iştirak ediblər.

Azərbaycan Turizm Agentliyinin rəhbəri Fuad Nağıyev turizmin ölkəmizdəki sürətli inkişafından, bununla bağlı qəbul olunan dövlət proqramlarından, imzalanan fərman və sərəncamlardan, reallaşdırılan layihələrdən bəhs edib. Qeyd olunub ki, son illər Rusiya və Azərbaycan arasında turizm əlaqələri inkişaf edir və bu, tempi, dinamikanı qorumaq olduqca önəmlidir. Təkcə bu ilin ilk yarısında Rusiyadan Azərbaycana 600 mindən çox turist gəlib.

Rusiyanın Federal Turizm Agentliyinin rəhbəri Oleq Safonov iki ölkə arasında digər sahələrdə olduğu kimi, turizm sahəsində də əlaqələrin inkişaf etdiyini diqqətə çatdıraraq deyib: "Rusiya ilə Azərbaycan arasında turizm münasibətlərinin yüksələn dinamika ilə inkişaf etməsi bizi çox sevindirir. 2016-cı illə müqayisədə 2017-ci ildə Rusiyadan Azərbaycana turist səfərləri 17 faiz artıb. Rusiya bu artım dinamikasının davam etməsində maraqlıdır. Çünki bizim bu sahədə böyük perspektivlərimiz var".

"Rusiya Xəzər dənizində kruiz turizminin inkişaf etdirilməsində maraqlıdır. Hazırda ölkəmizdə Şimali Qafqaz regionunda turizmin inkişafına dair strategiya hazırlanır. Bu strategiyada xüsusi yer Xəzər dənizində kruiz səfərlərinin həyata keçirilməsinə ayrılır. Biz bu məsələni Azərbaycan tərəfi ilə müzakirə etdik. Bu ideyaya Qazaxıstan və İrandan olan həmkarlar da pozitiv yanaşır. Bu, olduqca perspektivli turizm marşrutu ola bilər. Beynəlxalq kruiz şirkətləri yeni marşrutların yaranmasında maraqlıdır. Biz bu istiqamətdə işlərə başlamışıq. Qeyd edim ki, Avropa şirkətlərinin də yeni layihəyə marağı böyükdür" - deyə O.Safonov əlavə edib.

"Dəyirmi masa" çərçivəsində federasiya şurasının üzvü, Leninqrad vilayətinin dövlət hakimiyyəti orqanının nümayəndəsi İqor Fomin Rusiyanın turizm potensialına dair təqdimatla çıxış edib. O, martın 14-16-da Moskvada keçirilən "MITT 2018" beynəlxalq turizm sərgisində Azərbaycanın da təmsil olunduğunu xatırladıb.

Rusiyalı turistlərin Azərbaycana böyük marağı olduğunu qeyd edən İ.Fomin deyib: "Bu, qarşılıqlı maraqdır. Çünki ötən illər ərzində Azərbaycandan çoxsaylı turist Rusiyanın tanınmış Minvodı və Pyatiqorsk şəhərlərinə səfərlər ediblər. Turizm sahəsində əlaqələrin genişləndirilməsi ölkələr arasında digər sahələrin inkişafına da təkan verəcək, iqtisadiyyatın genişlənməsinə yol açacaq".

Tədbirdə "Turizm sahəsində əməkdaşlıq" mövzusunda çıxış edən Dövlət Turizm Agentliyinin beynəlxalq bazarlar departamentinin rəhbəri Sevinc Zeynallı Azərbaycanın turizm potensialından danışıb. Bildirib ki, bu gün turizm sahəsində Rusiya Azərbaycan üçün strateji bazarlardan hesab edilir. Bunu Rusiyadan Azərbaycana ildən-ilə artan turist axını da təsdiqləyir.

"Turizm sahəsində ikitərəfli və çoxtərəfli layihələrin işlənib hazırlanması və həyata keçirilməsi zamanı əməkdaşlıq təcrübəsi" mövzusunda təqdimatla çıxış edən Qonaqpərvərlik sənayesi üzrə komitə sədri, "Delovaya Rossiya"nın icra komitəsinin rəhbəri Yelena Krivenkova Rusiya və Azərbaycanın turizm sahəsində böyük inkişaf perspektivlərinin mövcud olduğunu vurğulayıb. Bildirib ki, bu əlaqələri genişləndirmək üçün hər iki ölkənin turoperatorları arasında sıx əlaqələr qurulmalı, iki ölkə arasında reallaşdırılan layihələrə birgə investisiyalar yatırılmalıdır. O, Azərbaycana böyük marağın olduğunu qeyd edib.

Sonra "Naftalan sanatoriyasının müalicəvi xüsusiyyətləri" barədə videoçarx nümayiş etdirilib. Naftalanın sağlamlıq mərkəzinin nümayəndəsi Mirağa Seyidov iştirakçılara buradakı hotellərdəki xidmətlər barədə məlumat verib.

Azərbaycanın beynəlxalq turizm mərkəzlərindən birinə çevrilən Naftalanın xarici turistlər üçün cəlbediciliyini vurğulayan M.Seyidov bu mərkəzlərdə istirahət edənlərin sayının ildən-ilə artmasına təsir göstərən amillərdən birinin də ötən illərdə burada müalicə alan turistlərin yenidən Naftalanı seçməsi ilə əlaqədar olduğunu deyib.

"Dəyirmi masa" çərçivəsində Sverdlovsk vilayətinin investisiyalar və inkişaf nazirinin müavini Yevgeniy Kopelyanın, Dağıstan Respublikasının turizm və xalq sənət nümunələri naziri vəzifəsini icra edən Rabiyat Zakavovanın, Stavropol diyarının turizm və sanatoriyalar naziri Aleksandr Truxaçevin "Rusiyanın regionlarının turizm potensialının təqdimatı", "Dağıstan (Rusiya) və Azərbaycanın regionları arasında turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin aktual məsələləri", "Sverdlovsk vilayətində turizm sahəsinin inkişafı təcrübəsi və perspektivlər" mövzularında çıxışları dinlənilib.

### Aqrar sahədə əməkdaşlığın inkişafı

2017-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı 4,2 faiz artıb. Ötən il Azərbaycandan Rusiyaya meyvə-tərəvəz ixracı 3,8 dəfə, pambıq ixracı isə 8,6 dəfə artıb. Bu göstəricilər aqrar sahədə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsindən xəbər verir.

Bu barədə forumun **"Aqrar sahədə əməkdaşlığın inkişafı"** mövzusunda təşkil edilmiş "dəyirmi masa"sında danışılıb.

"Dəyirmi masa"da müvafiq dövlət orqanlarının, aqrar sahədə ixtisaslaşmış şirkətlərin və təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev bildirib ki, Azərbaycan və Rusiya arasında aqrar sahədə əməkdaşlıq ildən-ilə genişlənir. O, ölkəmizin Rusiya ilə birgə bu sahədə layihələrin reallaşdırılmasında, innovasiyaların tətbiqində maraqlı olduğunu diqqətə çatdırıb.

Rusiyanın kənd təsərrüfatı nazirinin müavini Sergey Lyovin isə Azərbaycanın aqrar məhsullarına Rusiyada böyük maraq olduğunu, hər iki ölkənin aqrar sahədə çalışan iş adamlarının uğurla əməkdaşlıq etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Rusiya Azərbaycana böyük miqdarda taxıl məhsulları, Azərbaycan isə Rusiyaya meyvə və tərəvəz məhsulları ixrac edir. Rusiya istehsalçıları Azərbaycana taxıl məhsulları ilə yanaşı, şəkər tozu, süd və digər kənd təsərrüfatı məhsulları göndərməkdə, birgə müəssisələr yaratmaqda maraqlıdırlar.

Nazir müavini əlavə edib ki, hər iki ölkənin regionları arasında da əməkdaşlıq sahəsində böyük perspektivlər mövcuddur. Regionlarda mühüm layihələrin həyata keçirilməsi qarşıda duran əsas məqsədlərdən biridir.

"Dəyirmi masa"da hər iki ölkənin kənd təsərrüfatı sahəsində təcrübəsinə, bu sahədə tətbiq olunan qabaqcıl texnologiyalara və yeniliklərə, ixracın genişləndirilməsinə, əməkdaşlığın inkişafına dair ətraflı fikir mübadiləsi aparılıb, regionların investisiya potensialına və aqrar sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyətinə dair təqdimatlar keçirilib. Həmçinin aqrar sahədə müştərək layihələrin reallaşdırılması təcrübəsi, regionların investisiya potensialının təqdimatlarının keçirilməsi, Rusiya ilə Azərbaycanın aqrar sahədə əməkdaşlığının inkişaf etdirilməsi mexanizmləri, aqrar-sənaye kompleksi sahəsində qarşılıqlı fəaliyyətin perspektivləri, kənd təsərrüfatı, tikinti-yol texnikasının və digər avadanlığın satışı və aktual məsələlər müzakirə olunub.

### Kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlıq

IX Azərbaycan-Rusiya Regionlararası Forumu çərçivəsində keçirilən **"Kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlıq"** mövzusunda "dəyirmi masa"nın iştirakçıları kiçik və orta biznes sahəsində təcrübələrini bölüşüblər.

"Dəyirmi masa"da çıxış edən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri Orxan Məmmədov Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı, bu sahəyə göstərilən dövlət dəstəyi barədə məlumat verib. O qeyd edib ki, 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. Agentliyin yaradılmasında məqsəd ölkədə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, onlara bir sıra xidmətlərin göstərilməsi, dövlət və özəl qurumların bu sahədə göstərdikləri xidmətlərin əlaqələndirilməsidir.

Agentlik tərəfindən görülən işlər barədə danışan Orxan Məmmədov qeyd edib ki, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, 2025-ci ilədək Azərbaycanda kiçik və orta biznesin payı ÜDM-də 35 faizə, məşğulluqda 40 faizə, ölkənin qeyri-neft ixracında isə 25 faizə çatdırılacaq.

Rusiyanın "Kiçik və Orta Sahibkarlıq Korporasiyası"nın icraçı direktoru Aleksandr Braverman isə Rusiyada kiçik və orta sahibkarlığın inkişafı istiqamətində görülən işlər barədə danışıb, belə tədbirlərin biznes dairələri arasında əlaqələrin genişləndirilməsində əhəmiyyətli olacağını deyib.

"Dəyirmi masa"da Azərbaycan və Rusiya tərəfindən rəsmi şəxslər, eləcə də İKT, qida və kimya sənayesi, tikinti, sığorta, maliyyə və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

*Ardı 5-ci səh.*

# Forumun “dəyirmi masa”larında Azərbaycan-Rusiya əməkdaşlığının aktual məsələləri müzakirə olunub

*Əvvəli 4-cü səh.*









## Humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi

Forumun **“Humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi”** mövzusuna həsr edilən “dəyirmi masa”sında çıxış edən Azərbaycanın təhsil nazirinin müavini Firudin Qurbanov dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyədə olmasının məmnunluq doğurduğunu bildirib. Deyib ki, hər iki ölkənin prezidentləri ikitərəfli münasibətlərin genişlənməsini daim diqqətdə saxlayırlar.

“Azərbaycanda rus dilində təhsilə dövlət səviyyəsində diqqət yetirilir. Ölkəmizdə 120 mindən çox şagirdin oxuduğu 342 orta məktəbdə tədris həm də rus dilində aparılır, 16 məktəbdə isə tədris yalnız rus dilindədir. Ali məktəblərdə 150 ixtisasdan 105-i rus dilində də tədris olunur, 20 min tələbə təhsilini rus dilində alır” - deyə F.Qurbanov bildirib. O qeyd edib ki, azərbaycanlı gənclərin rus dilinə və ədəbiyyatına marağı artır. Hər il ölkəmizdə rus dili olimpiadaları keçirilir. Rusiyanın təhsil müəssisələrində də Azərbaycan dili və ədəbiyyatı fənni tədris olunur. Bundan əlavə, 2005-ci ildən Moskva Dövlət Linqvistik Universitetində Azərbaycan dili mərkəzi fəaliyyət göstərir. Bakıda Lomonosov adına Moskva Dövlət Universitetinin, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılıb.

Rusiya XİN Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (universitetinin) prorektoru Artyom Malgin bildirib ki, Azərbaycan və Rusiya arasında humanitar sahədə xüsusi münasibətlər var. Azərbaycanda rus dili, mədəniyyəti qorunub saxlanılıb, ruslar rahat şəraitdə yaşayırlar. Prorektor Rusiya-Azərbaycan Ali Təhsil Təşkilatları Assosiasiyası çərçivəsində ikitərəfli əməkdaşlığın inkişafı, təhsil və elm sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi imkanlarından da danışıb.

Mədəniyyət nazirinin müavini Rafiq Bayramov deyib ki, Azərbaycanla Rusiya arasında dostluq münasibətləri böyük tarixə malikdir. Bu münasibətlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan təməl üzərində daha da möhkəmlənir. Azərbaycanla Rusiya strateji tərəfdaş dövlətlərdir. Ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, humanitar sahədə də genişmiqyaslı əməkdaşlıq mövcuddur. Bu gün Rusiyada yaşayan azərbaycanlılar, eyni zamanda, Azərbaycanda yaşayan ruslar ölkələrimizin ictimai-mədəni həyatında fəal iştirak edirlər. Nazir müavini qeyd edib ki, Azərbaycan və Rusiya arasında irimiqyaslı mədəni layihələr həyata keçirilir.

“Dəyirmi masa”da təhsil, elm, mədəniyyət və idman sahələrində layihələrin həyata keçirilməsi, gənclər arasında əməkdaşlığın aktivləşdirilməsi, humanitar sahədə əlaqələrin daha da genişləndirilməsi imkanları müzakirə olunub, hər iki ölkənin humanitar sahədə təcrübəsini, bu sahədə qazanılmış uğurları əks etdirən, eləcə də təhsil müəssisələrinin proqramlarına dair təqdimatlar keçirilib. Tədbirdə elm və təhsil müəssisələrinin, mərkəzi icra hakimiyyətlərinin və humanitar sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

## Nəqliyyat və tranzit yükdaşımaları sahəsində əməkdaşlığın möhkəmləndirilməsi

Azərbaycan və Rusiya dəniz nəqliyyatı sahəsində əməkdaşlığa dair iki yeni sənəd imzalayacaqlar.

Bu barədə Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə forum çərçivəsində təşkil edilən **“Nəqliyyat və tranzit yükdaşımaları sahəsində əməkdaşlığın möhkəmləndirilməsi”** mövzusunda “dəyirmi masa”da məlumat verib.

Nazir xatırladıb ki, Azərbaycan ilə Rusiya arasında zəruri normativ-hüquqi baza yaradılıb, avtomobil, dəmir yol və hava nəqliyyatına dair hökumətlərarası sazişlər imzalanıb. Hazırda ticarət gəmiçiliyinə dair sazişlərin layihələrinə baxılır.

“Dəyirmi masa”da çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev deyib ki, iqtisadi əlaqələrin mühüm istiqamətlərindən biri sürətlə inkişaf etməkdə olan tranzit-nəqliyyat əməkdaşlığıdır. Bu sahədə əməkdaşlıq ölkələrimiz arasında və beynəlxalq miqyasda yükdaşımaların artmasına kömək edəcək.

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Şimal-Cənub layihəsinin inkişafından söhbət açaraq bildirib ki, Azərbaycan tərəfi Astara (İran) ərazisində terminal inşa edib, bu terminaldan artıq 195 min ton yük daşınıb. Həmin terminal işə düşənədək müvafiq dövr ərzində yolun həmin hissəsində cəmi 1700 ton yük daşınmışdı.

“Dəyirmi masa”da müvafiq sahədə fəaliyyət göstərən dövlət qurumlarının, yükdaşımaları ilə məşğul olan şirkətlərin təmsilçiləri iştirak edib. İştirakçılar nəqliyyat sahəsində əməkdaşlığın inkişafı mexanizmlərini, yükdaşımaların genişlənməsi perspektivlərini, iki ölkə arasında yüklərin çatdırılmasını yaxşılaşdırmaq yollarını müzakirə ediblər. Bundan başqa, nəqliyyat və yükdaşımaları sahəsində mövcud əməkdaşlığa, əlaqələrin genişləndirilməsinə dair bir sıra çıxışlar dinlənilib, müzakirələr aparılıb.

Qeyd edilib ki, Azərbaycan ilə Rusiya arasında nəqliyyat və tranzit sahəsində əməkdaşlıq imkanları genişdir və bu baxımdan, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi önəmlidir.

Diqqətə çatdırılıb ki, əvvəlki illə müqayisədə bu il “Şimal-Cənub nəqliyyat dəhlizi” ilə daşınan yüklərin həcmi 100 dəfə artıb. Tədbirdə həmçinin ölkələrimiz arasında nəqliyyat sahəsində birgə həyata keçirilən layihələr barədə də məlumat verilib.

## Qadın sahibkarlığının inkişafında əməkdaşlıq perspektivləri

Forumun **“Qadın sahibkarlığının inkişafında əməkdaşlıq perspektivləri”** mövzusunda keçirilən növbəti “dəyirmi masa”da Azərbaycan tərəfdən moderatorluq edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbirin əhəmiyyətini vurğulayıb. Rusiya ilə Azərbaycan arasındakı münasibətlərə toxunan komitə sədri qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfələr verirlər.

Azərbaycan cəmiyyətində qadınların rolundan bəhs edən Hicran Hüseynova qeyd edib ki, 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda qadınlara seçib-seçilmək hüququ verilib. Bu gün ölkəmizdə gender siyasətinin gücləndirilməsi dövlət strategiyasının əsas istiqamətlərindən biridir.

Ölkəmizdə inkişaf etməkdə olan qadın sahibkarlığından danışan Hicran Hüseynova son illər Azərbaycanda qadın sahibkarlarının sayının xeyli artdığını diqqətə çatdırıb. Bu sahədə görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verən komitə sədri bildirib ki, qadın sahibkarlığının inkişafı qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edir. Qadın sahibkarlığı inkişaf etdikcə beynəlxalq əməkdaşlıq məsələləri də mühüm amilə çevrilir. Bu baxımdan sahibkar xanımlar işlərini inkişaf etdirməklə yanaşı, beynəlxalq əməkdaşlığa da önəm verməlidirlər.

O, Azərbaycanda qadın sahibkarlığının inkişafına göstərilən dövlət dəstəyi, o cümlədən təşkil olunan müxtəlif maarifləndirici tədbirlər, qadın sahibkarlara verilən güzəştli kreditlər, “ABAD”ın bu sahədəki fəaliyyəti barədə danışıb, Azərbaycanın Rusiyanın qadın sahibkarlar təşkilatları ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu və bu sahədəki geniş imkanları diqqətə çatdırıb.

“Dəyirmi masa”nın Rusiyadan olan moderatoru, Rusiya-Ərəb İşgüzar Şurasının direktoru, “Biznes qadınları” Ümumrusiya İctimai Təşkilatının prezidenti Tatyana Qvilava qadın sahibkarlığının inkişafının bütün cəmiyyətlərə xeyir gətirdiyini diqqətə çatdırıb. Qeyd edib ki, sahibkar qadınların fəaliyyətləri çox zaman nümunəviliyi ilə seçilir. Qadın hər bir işdə diqqətlidir. Tatyana Qvilava Azərbaycanla Rusiya arasındakı münasibətlərdən danışaraq, bir çox sahələrdə olduğu kimi, qadın sahibkarlarının da əməkdaşlığının uğurlu olacağına əminlik ifadə edib. O, Azərbaycanda qadın sahibkarlığının inkişafına göstərilən dəstəkdən məmnunluğunu bildirib, bu sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu söyləyib.

Qadın sahibkarlar “dəyirmi masa”da çıxış edib, sualları cavablandırıblar. Bildirilib ki, qadınlar əzmkarlıqları ilə öz ideyalarını reallığa çevirə və ətraflarındakı dünyanı dəyişə bilərlər. Bu şərtlə ki, onlara bunun üçün resurslar verilsin.

Sonra qadınların iqtisadi imkanlarının və potensialının artırılmasında sahibkarlığın rolu, qadın sahibkarlığının inkişafında mövcud problemlər və həlli yolları, kənd yerlərində qadın sahibkarlığının genişləndirilməsi, qadın hüquqlarının möhkəmlənməsində və ailə münasibətlərində sahibkarlığın təsiri, Azərbaycan Respublikasının və Dağıstan Respublikasının regionları arasında sahibkarlıq sahəsində ikitərəfli əlaqələrin genişləndirilməsi imkanları, Novqorod vilayətində qadın sahibkarlığının inkişafı kimi mövzularda məruzələr dinlənilib.

Bundan başqa, qadın sahibkarlar bu sahədə təcrübələrini bölüşüb və əməkdaşlıq imkanlarını müzakirə ediblər.

# Azərbaycan-Rusiya Regionlararası Forumu işini plenar iclasla başa çatdırıb

IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılışı mərasimi plenar iclasla davam edib.

AZƏRTAC xəbər verir ki, plenar sessiya Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkinin sədrliyi ilə keçirilib.





Nazir Şahin Mustafayev bildirib ki, Azərbaycan və Rusiyanın dövlət başçıları arasındakı yüksək səviyyəli münasibətlər iki ölkənin əməkdaşlığının strateji xarakter almasına təkan verib. Rusiyanın Azərbaycanın idxal üzrə əsas tərəfdaşı olduğunu deyən nazir, həmçinin qeyri-neft məhsullarının ixracı sahəsində də Rusiyanın Azərbaycan üçün öncül yerdə dayandığını söyləyib. Azərbaycan indiyədək Rusiya iqtisadiyyatına 1 milyard dollar, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard dollar sərmayə yatırıb. Azərbaycanda Rusiya kapitallı 760 şirkət fəaliyyət göstərir.

Nəqliyyat və daşımalar sahəsindəki əlaqələrə də toxunan Şahin Mustafayev Şimal-Cənub nəqliyyat marşrutunun hər iki ölkə üçün dividendlər gətirdiyini diqqətə çatdırıb. O, Cənubi Asiyadan Rusiyaya yük daşımaların dinamik şəkildə artdığını qeyd edib.

Humanitar sahədə də əməkdaşlığın genişləndiyini söyləyən nazir bu sahədə əlaqələrin gücləndirilməsində Heydər Əliyev Fondunun böyük töhfələrinin olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycanda rus dilinin tədris olunduğu 340-dan çox ümumtəhsil məktəbi, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialları, Bakı Slavyan Universiteti fəaliyyət göstərir.

Azərbaycanla Rusiyanı tarixi əlaqələr birləşdirdiyini deyən rusiyalı nazir Maksim Oreşkin qeyd edib ki, mövcud imkanlar iqtisadi əməkdaşlığı daha da genişləndirməyə şərait yaradır. Ona görə də dövlət başçıları qarşımızda bu əməkdaşlığı yeni səviyyəyə qaldırmaq vəzifəsi qoyublar. Forumda prezidentlərin iştirakı onun əhəmiyyətini daha da artırır. “Biz gömrük sahəsində əlaqələrə diqqət ayırırıq, tariflər aşağı salınıb. Hətta yaşıl dəhlizin yaradılması istiqamətində irəli gedirik. Qarşımızda çox böyük imkanlar və görülməli işlər var. Böyük və kiçik biznesin əlaqələrinin inkişafına diqqəti artırmaq bizim məqsədlərimizdən biridir” - deyə nazir bildirib.

Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Əli Hüseynli bu gün ikitərəfli münasibətlərin regionda bütün əlaqələrə təsir göstərdiyini, yeni əməkdaşlıq formatları yaratdığını deyib. Ölkələrimizin parlamentləri arasında əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Əli Hüseynli Azərbaycan parlamentinin Rusiyanın regional qanunverici orqanları ilə də sıx əlaqələr qurduğunu deyib. O qeyd edib ki, Azərbaycan Rusiyanın regionda yeganə strateji tərəfdaşıdır.

Azərbaycan-Rusiya İşgüzar Şurasının məqsədinin iki ölkənin biznes nümayəndələri arasında əlaqələrin qurulması və genişlənməsi olduğunu deyən qurumun sədri Səməd Qurbanov bu məqsədlə görüşlərin, konfransların və forumların təşkil edildiyini qeyd edib. O, şuranın fəaliyyəti haqqında geniş məlumat verib, burada müxtəlif sahələrə aid işgüzar dairələrin təmsil olunduğunu söyləyib. Səməd Qurbanov Azərbaycan şirkətlərinin Rusiya regionlarında fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində fəaliyyət göstərdiklərini bildirərək rusiyalı biznesmenləri hərtərəfli əməkdaşlığa dəvət edib.

Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repkin müştərək layihələrin sayının artırılması üçün bir neçə amilin əsas rol oynadığını qeyd edib. Onun sözlərinə görə, bunun üçün ikitərəfli görüşlərin sayını artırmaq, atılacaq addımların koordinasiyasına diqqət yönəltmək lazımdır. Aleksey Repkin deyib ki, hər iki ölkə sənayenin şaxələndirilməsinə təkan verməlidir: “Yüksək texnologiyalar sahəsində biz yaxşı əməkdaşlıq edə bilərik. Eyni zamanda, Rusiya regionları ilə Azərbaycanın əlaqələrinin daha da artırılmasına çalışmalıyıq. Burada Rusiyanın bir çox regionlarından nümayəndələr var və düşünürəm ki, onlar Azərbaycanda öz tərəfdaşlarını tapa biləcəklər”.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Eldar Əzizov dövlət başçıları arasındakı yüksək səviyyəli əlaqələrin iki ölkə arasında regionlararası əməkdaşlığın inkişafına güclü təkan verdiyini bildirib. O, Bakının son illər Prezident İlham Əliyevin diqqəti sayəsində sürətlə inkişaf etdiyini, burada yeni müəssisələrin yarandığını, paytaxtın məşhur turizm şəhərlərindən birinə çevrildiyini söyləyib. Eldar Əzizov Bakının Həştərxan, Volqoqrad və digər Rusiya şəhərləri ilə sıx əməkdaşlığı haqqında məlumat verib.

Plenar iclasda Azərbaycanın Gəncə şəhərinin, Şəki, İmişli rayonlarının icra hakimiyyətlərinin başçıları Niyazi Bayramov, Elxan Usubov və Vilyam Hacıyev, Rusiya Federasiyasının Dağıstan Respublikasının başçısı Vladimir Vasilyev, Stavropol diyarının qubernatoru Vladimir Vladimirov, Novqorod vilayətinin qubernatoru Andrey Nikitin, Arxangelsk vilayətinin qubernatoru İqor Orlov çıxış edərək təmsil etdikləri regionların iqtisadi, turizm imkanları, mədəniyyəti haqqında məlumat veriblər. Çıxışlarda bu regionlar arasında əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğu diqqətə çatdırılıb.

Sonra Azərbaycanın və Rusiyanın şirkətləri və biznes təşkilatları arasında sənədlərin imzalanması mərasimi olub. “Azərbaycan İnvestisiya Şirkəti” ASC və “R-Farm” SC arasında Azərbaycanda əczaçılıq məhsullarının istehsalı və paylanması sahəsində əməkdaşlıq barədə, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə “İşgüzar Rusiya” Ümumrusiya İctimai Təşkilatı arasında əməkdaşlıq haqqında, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Rusiya-Azərbaycan İşgüzar Şurası arasında əməkdaşlıq barədə, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Rusiya-Azərbaycan İşgüzar Şurası arasında əməkdaşlıq haqqında, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə İslam Biznesi Beynəlxalq Assosiasiyası arasında əməkdaşlıq haqqında, Azərbaycanın “Khan-El” MMC və Rusiyanın “Qud-Fud Postavka” MMC şirkətləri arasında Rusiyaya fındıq ixracına dair, Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası və “Biznes qadınları” Ümumrusiya İctimai Təşkilatı arasında əməkdaşlıq barədə, Azərbaycan Respublikasının “Dövlət Aqrar Ticarət Şirkəti” MMC və Rusiyanın Kənd Təsərrüfatı Nazirliyinin Analitik Mərkəzi Federal Dövlət Büdcə Təşkilatı arasında əməkdaşlıq haqqında, Azərbaycanın “Azhazelnut” MMC və Rusiyanın “Frutimpex” MMC arasında Rusiyaya fındıq ixracına dair, “Azər Sharab NM” MMC və “Del Monte” MMC arasında spirtli içkilərin Rusiyaya ixracı barədə, “Vefa Collection” MMC və “Delikatesoff” MMC arasında əməkdaşlıq haqqında, Azərbaycan Turizm Assosiasiyası və “Mahaçqala Beynəlxalq Hava Limanı” Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq barədə, Bakı şəhərinin Nərimanov rayon İcra Hakimiyyəti və Rusiyanın Həştərxan vilayəti hökuməti arasında əməkdaşlıq haqqında memorandumlar, “Grovv Group Azerbaijan” MMC və “Essen Logistic” MMC arasında pomidor satışına dair, Azərbaycanın “Mətanət-A” MMC və Rusiyanın “Matanat” MMC şirkətləri arasında Rusiyada quru inşaat qarışıqlarının istehsalı zavodunun tikintisinə dair, “Karvan-L” MMC və “TexSportServis” MMC arasında xidmət göstərilməsinə dair, Azərbaycanın “CTC Holdinq” ASC və Rusiyanın “Komman Group” MMC arasında ölkəmizə avadanlıqların tədarükünə dair müqavilələr imzalanıb.

Plenar iclasda “dəyirmi masa”ların moderatorlarının hesabatı dinlənilib.

Bununla, IX Azərbaycan-Rusiya Regionlararası Forumu başa çatıb.

# Tramp Paşinyanla görüşmədi, Putin isə Yerevana səfərini təxirə saldı

## ABŞ rəsmilərindən heç kəsin qəbuluna düşə bilməyən Ermənistanın baş naziri növbəti zərbəni Rusiya Prezidentindən aldı

*Əvvəli 1-ci səh.*

### "İlham Əliyev Putinlə 3 ayda 4 dəfə görüşür, Ermənistanı isə saymır"

Bir müddət əvvəl Ermənistan mediası bu il sentyabrın sonunda Putinin Ermənistana səfər edəcəyi barədə məlumat yaymışdı. Amma indi yayılan məlumatlar proseslərin başqa istiqamətdə getdiyini göstərir. Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib ki, Vladimir Putin Ermənistana ən yaxşı halda gələn il səfər edəcək.

Ermənistanda Milli Razılaşma Partiyasının sədri Aram Arutyunyan bildirir ki, Azərbaycandan fərqli olaraq Putinin Yerevana gəlişini təxirə salması Nikol Paşinyan hökumətinin Rusiya əleyhinə yönəlmiş fəaliyyətinin nəticəsidir: "Ermənistanda baş verənlərə Qərb gözünü yumur, çünki inqilabı maliyyələşdirən Qərbdir. İnqilabla bağlı hər şey Ermənistandan Rusiyanın 102-ci bazasının çıxarılması üçün təşkil edilib. Hökumət gizli oyun aparır və tamam fərqli hədəflərə doğru irəliləyir. Rusiya bunu bağışlamayacaq. Necə olur ki, Azərbaycan Prezidenti İlham Əliyev Putinlə 3 ayda 4 dəfə görüşür, Ermənistanı və onun rəhbərliyini isə saymır".

Qeyd edək ki, Paşinyan Rusiya ilə münasibətlərinin yüksək səviyyədə olduğunu göstərmək üçün Putinin səfərinə çox ümid bəsləyirdi. Amma reallıq onu göstərir ki, Paşinyan Rusiya rəhbərliyi üçün arxa planda yer alır və bu səbəbdən Putin Ermənistana getməyə lüzum görmür.

### "Paşinyanı adam yerinə qoymurlar"

Hələ Rusiyaya səfərə yollanmazdan əvvəl Paşinyan iddia edirdi ki, Moskva-Yerevan əlaqələri yüksək səviyyədədir və bu əlaqələr daha da dərinləşəcək. Amma maraqlıdır ki, Paşinyanın Rusiya səfərində hansısa ciddi sənəd imzalanmadı.

Erməni şərhçi Tevos Arşakyan bu xüsusda qeyd edir ki, Rusiya ilə əlaqələri korlayan Yerevan Qərblə də münasibətlərində problem yaşayır. Onun sözlərinə görə, belə vəziyyət Ermənistan üçün ciddi çətinliklərə yol açır və bu hal həyati vacib məsələlərdə Ermənistan üçün sarsıdıcı zərbələr deməkdir.

Ekspert diqqəti buna yönəldir ki, Nikol Paşinyanın Moskvada Rusiya prezidenti Vladimir Putinlə görüşü istənilən nəticəni verməyib. O, Paşinyanın xarici siyasət təcrübəsinin yoxluğuna diqqət çəkib: "Heç kimə sirr deyil ki, Paşinyanın xarici siyasət təcrübəsi yoxdur və bu, Ermənistana baha başa gəlir".

Erməni şərhçi qeyd edir ki, Paşinyan qaçaraq Putinin görüşünə getdi: "Daha sonra iki ölkə arasında münasibətlərin inkişafı haqqında bəlağətli bəyanatlar verdi. Halbuki, Paşinyanla görüşdən əvvəl Putin Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşmüşdü və həmin görüşdə 16 sənəd imzalanmışdı. Paşinyanla isə heç bir sənəd imzalanmadı. Bu, Paşinyana əhəmiyyət verilməməsinin göstəricisi idi. Bir sözlə, Paşinyanı adam yerinə qoymurlar".

### "Paşinyan Ağ evin 15-ci adamları ilə də görüşə bilmədi"

Bütün bunları isə Paşinyan ABŞ səfəri ilə kompensasiya edəcəyini düşünürdü. Amma burada da o, biabırçı duruma düşdü. Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan səfərdən əvvəl bildirdi ik, Yerevan Nikol Paşinyan və ABŞ prezidenti Donald Tramp arasında görüşün təşkil olunması üzərində işləyir. Amma Paşinyanın bu görüşə hazırlaşması nəticə vermədi, Tramp və digər ABŞ rəsmiləri Paşinyanla görüşdən imtina etdilər.

"168 jam" qəzeti yazır: "Ermənistan tərəfinin xahiş etdiyi görüşdən Donald Tramp imtina edib. Bundan sonra onlar ABŞ-ın vitse-prezidenti Maykl Penslə Nikol Paşinyanın görüşünü təşkil etməyə cəhd göstəriblər. O da Ermənistanın hökumət başçısı ilə görüşdən imtina edib. Bir sözlə, Paşinyan Ağ Evin 15-ci adamları ilə də görüşə bilmədi".



Qeyd olunur ki, qərbpərəst Paşinyanın Rusiyaya mütəmadi səfərləri və bəzi addımları Qərbdə də anlaşılmazlıq yaradıb. Belə ki, ABŞ ona əvvəlcədən xəbər edilmədən Rusiyanın təklifi ilə Ermənistanın Suriyaya "humanitar qoşun" göndərmək qərarının məğzini anlaya bilmir. Həmçinin, Paşinyanın şəxsi göstərişi ilə rus mütəxəssislərin Ermənistandakı ABŞ laboratoriyalarına girişinə icazə verilməsi Vaşinqtonun xoşuna gəlməyib və Paşinyanın bu dərəcədə "sərbəstliyi" Qərbdə qıcıq doğurub.

Xatırladaq ki, rəsmi Yerevan Ermənistanda fəaliyyət göstərən ABŞ laboratoriyalarına rus mütəxəssislərin girişi üçün icazə verib. Nikol Paşinyan Rusiyanın "Kommersant" qəzetinə müsahibəsində bu xüsusda bildirib: "Təqribən 10-15 gün əvvəl mənim şəxsi göstərişimlə rusiyalı mütəxəssislər həmin laboratoriyalara buraxılıb. Biz əməkdaşlığa hazırıq və artıq rusiyalı mütəxəssislər əmin oldular ki, laboratoriyalarda qorxulu heç bir şey yoxdur. Həmin laboratoriyalar heç bir şəkildə Rusiyaya qarşı istifadə edilə bilməz". Onun sözlərinə görə, rus mütəxəssislərin ABŞ laboratoriyalarına girişi ilə bağlı heç vaxt problem olmayıb.

### Vaşinqtondan Yerevana ciddi narazılıq

Amma rus mütəxəssislərin ABŞ laboratoriyalarına girişi Vaşinqtonda ciddi narazılıq yaradıb. Onu da bildirək ki, Ermənistanın hazırkı müdafiə naziri, əvvəllər NATO və ABŞ kəşfiyyatına işləmiş David Tonoyan ölkəsində Amerikaya məxsus biolaboratoriyalar şəbəkəsinin yaradılması üzrə layihənin koordinatorudur. Yaranmış durumda Amerika tərəfi Paşinyana paritet tələbi irəli sürüb. Bildirilir ik, ruslara icazə verilirsə, Ermənistandakı Rusiya laboratoriyaları da ABŞ mütəxəssislərinə açıq olmalıdır.

Etibarlı mənbələrdən əldə olunan məlumatlara əsasən, bütün bu ziddiyyətləri nəzərə alan Vaşinqton Trampın Paşinyanla görüşünə lüzum görməyib. ABŞ-da Amerikadakı erməni cəmiyyətinin nümayəndələri ilə görüşündə isə Paşinyan həm də Rusiyaya qarşı xəyanətkar mövqeyini yenidən açıq nümayiş etdirib. Rusiyanı hətta ölkəsinin daxili işlərinə qarışmaqda da günahlandırıb.

Belə ki, ABŞ-dakı erməni diasporunun təmsilçiləri Paşinyandan Ermənistanın xarici siyasətilə bağlı hansı fikirdə olduğunu soruşublar. Onların dəstəyini itirmək istəməyən baş nazir hələ də qərbpərəst olduğunu sübut etmək üçün Rusiyanın əleyhinə fikirlər səsləndirib. Hətta fürsətdən istifadə edərək, Ermənistanın əvvəlki rəhbərlərinin hakimiyyətdə qalmaq naminə Kremlə boyun əymələrinə də toxunub və bunu təkrarlamayacağını bildirib: "Biz bütün beynəlxalq tərəfdaşlarımızla münasibətlərimizi inkişaf etdirməyə hazırıq. Lakin bunu bir tərəfdaşımızın hesabına, yaxud digərinin ziyanına etməyə hazırlaşmırıq. Ermənistan Avropa İttifaqı və ABŞ-la qarşılıqlı əlaqələrinin səviyyəsini qaldırmağa çalışacaq. Bu münasibətlərdə biz daha özünəəmin olmalı və suveren dövlətə məxsus yanaşmalar sərgiləməliyik".

### "Həm ABŞ, həm də Rusiya ilə münasibətlər korlanır"

Bütün bunlar, aydındır ki, Kreml tərəfindən heç də xoş qarşılana bilməz və bu səbəbdən "Jamanak" qəzeti Moskvanın Ermənistana təzyiqlərinin artmaqda olacağını yazır. Qeyd olunur ki, Paşinyanın ABŞ-da verdiyi açıqlamalar, həmçinin Rusiyanın tələblərini yerinə yetirməkdən imtina etməsi Kremlin səbir kasasını daşırır. Belə vəziyyət onu göstərir ki, Paşinyan həm ABŞ, həm də Rusiya ilə münasibətləri korlayır. Elə digər ölkələrlə də onun əlaqəsi yaxşı deyil.

Bunu Nikol Paşinyanın Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyası çərçivəsində İran prezidenti Həsən Ruhani ilə görüşündə bəzi məsələlərə görə aldığı rədd cavabından da aydın sezmək olar. Belə ki, görüş zamanı ikitərəfli ticari-iqtisadi əlaqələrin inkişafı və Avrasiya İqtisadi İttifaqı ilə azad ticarət zonasının yaradılması məsələləri müzakirə olunub. Bu mənada, iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində addımlar atılmasının vacibliyinə diqqət çəkən Paşinyan İranla Ermənistan arasında illərdir kağız üzərində qalan və icrası üçün maliyyə tapılmayan, reallıqda Tehranın reallaşmasında maraq göstərmədiyi layihələrin həyata keçirilməsi üçün səmərəli mühitin yaradılacağına ümid etdiyini bildirib. Ermənistan baş nazirinin sözlərinə görə, iki ölkə arasındakı hazırkı potensial indikindən daha çox nəticələrə nail olmağa imkan verir və bunun üçün qarşılıqlı addımlar atılmalıdır.

Perspektivsiz və paslanmış iqtisadi, nəqliyyat-loqistika layihələrində əməli iş prosesinə start verilməsi üçün Paşinyan İran prezidentindən maliyyə ayırmasını xahiş edib. Lakin Ruhani söhbətdən yayınaraq Paşinyanı başından edib və bildirib ki, BMT kluarları iqtisadi əməkdaşlığın genişləndirilməsini detallı müzakirə etmək üçün heç də münasib yer deyil.

Beləliklə, Paşinyan İrandan da əlini üzməli olub və bütün bunlar onun xarici siyasətinin real iflası kimi dəyərləndirilə bilər. Bu gedişlə Ermənistanı daha böyük problemlərin gözlədiyi də açıq vurğulanır.

Dağlıq Qarabağ münaqişəsi barədə BMT tribunasından sərsəm açıqlamalar verməsi isə onun Azərbaycanla münasibətlərin normallaşmasında maraqlı olmadığını göstərir. Bu isə Ermənistanı təcrid siyasətinin dərinləşməsi və ölkənin çöküşü deməkdir. Məhz belə vəziyyət Paşinyanın Ermənistanı daha sürətlə iflasa apardığını da aydın nümayiş etdirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

---

# Azərbaycanın və Rumıniyanın Xarici İşlər nazirlikləri arasında Birgə Fəaliyyət Planı imzalanıb

Nyu-Yorkda BMT-nin 73-cü sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə Rumıniya Baş nazirinin strateji tərəfdaşlıqların yerinə yetirilməsi məsələləri üzrə müavini Ana Birçal arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər iqtisadi əməkdaşlıq məsələlərini xüsusi vurğulamaqla, ikitərəfli əməkdaşlığın gündəliyi, eləcə də qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

Görüşdə, həmçinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rumıniya Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələrə dair 2019-2020-ci illər üzrə Birgə Fəaliyyət Planı imzalanıb.

---

# Nyu-Yorkda Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müzakirələr aparılıb

Nyu-Yorkda BMT-nin 73-cü sessiyası çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında görüş keçirilib.

Görüşlə bağlı Elmar Məmmədyarov deyib: "Ümumilikdə danışıqlar 3 saatdan çox davam etdi. Münaqişənin davam etməkdə olan həlli inkişafı üzrə, habelə bölgəyə dayanıqlı sülhün gətirilməsi üçün nə edilməli olduğu məsələlərinə dair maraqlı və mühüm fikir mübadiləsi aparıldı. Biz danışıqların həmsədrlərin bölgəyə səfəri də daxil olmaqla gələn ay davam etdirilməsinə razılaşdıq".

***AZƏRTAC***

---

# 5 ildə 3 peyk

## *"Azerspace 2" peykinin orbitə göndərilməsi İlham Əliyevin ardıcıl tarixi nailiyyətlərinin davamıdır*

*Əvvəli 1-ci səh.*

### Azərbaycanda kosmik sənayenin inkişaf yolu

Bu, müstəqil Azərbaycanın "Azerspace 1" telekommunikasiya peykindən, "Azersky" müşahidə peykindən sonra orbitə çıxan sayca 3-cü peyki idi. Bu, həm də gənc müstəqil respublika kimi 5 il ərzində orbitə 3 peyk göndərən Azərbaycanın beynəlxalq səviyyədə təqdir edilən uğur göstəricisidir və bütün bu uğurlar bir daha təsdiqləyir ki, son 15 il ərzində ölkəmizdə kosmik sənayenin yaradılmasına, telekommunikasiya peyklərinin orbitə çıxarılmasına, ümumi intellektual potensialın inkişafına xüsusi diqqət və qayğı göstərilir.

Ölkədə bir çox digər sahələrdə olduğu kimi kosmik sənayenin əsasları da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə ötən əsrin 70-80-ci illərində Azərbaycan Elmlər Akademiyasının nəzdində kosmik tədqiqatların aparılmasına başlanılıb, bir çox texnoloji istehsalat kompleksləri yaradılıb.

Kosmik sənayenin inkişafının ikinci mərhələsi isə Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlət başçısının son 15 ildə ölkəmizdə informasiya texnologiyalarının inkişafına xüsusi önəm verməsi və bu sahəyə göstərdiyi diqqət və qayğı kosmik sənayenin yaradılması, eləcə də sonrakı inkişaf yollarının müəyyənləşdirilməsi işinə güclü təkan verib.

2009-cu ilin avqust ayında sərəncam imzalayaraq "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nı təsdiq edən Prezident bir il sonra Cənubi Qafqazda ilk peyk operatoru olan "Azərkosmos"un yaradılması ilə bağlı daha bir sənədə imza atdı. 2011-ci ildən isə "Azərkosmos" fəaliyyətə başladı.

### "Azerspace 1" - 5 ilə 80 milyon dollar həcmində gəlir

İki il sonra - 2013-cü ildə Azərbaycan tarixində bir ilk gerçəkləşdi. 2013-cü il fevralın 7-də (Bakı vaxtı ilə fevralın 8-i) Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1" Fransız Qvianasının Kuru kosmodromundan orbitə buraxıldı.

Bu ilin fevral ayında Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə buraxılmasının beşinci ildönümü qeyd edildi. Bu müddət ərzində isə "Azerspace-1" peyki telekommunikasiya sahəsində digər ölkələrdən asılılığın aradan qaldırılması, yerüstü infrastrukturdan asılı olmadan informasiya təhlükəsizliyinin təmin edilməsi kimi üstünlükləri təmin edib.

"Azərkosmos"dan qəzetimizə verilən məlumata görə, hazırda Azərbaycanda peyk xidmətləri bazarında lider olan "Azerspace 1" peyki digər ölkələrdə də aktivlik nümayiş etdirir. Peykin dünyanın 25-dən çox ölkəsində sabit müştəri bazası var.

Dəyəri 233 milyon dollar olan və beş ildir ki, fəaliyyət göstərən "Azerspace 1" peykinin resurslarının 80 faizi kommersiya yönümlü istifadədədir. Bugünədək peykin tutumlarının istismarından 80 milyon dollar həcmində gəlir əldə edilib. Peykin qalan ömrü ərzində ölkə iqtisadiyyatına daha 220 milyon dollar gəlir gətirəcəyi proqnozlaşdırılır.

### Ölkəmizin müdafiə və təhlükəsizliyinə xidmət edən - "Azersky"

2014-cü ilin dekabrında Fransanın "Airbus DS" şirkəti və "Azərkosmos" arasında imzalanmış strateji əməkdaşlığa dair saziş çərçivəsində Azərbaycanın sayca ikinci, təyinatına görə Yer səthinin məsafədən müşahidəsi peyki olan "Azersky" orbitə buraxıldı. Bununla da, "Azərkosmos" Yer səthinin məsafədən müşahidəsi üzrə kommersiya fəaliyyətinə başladı.

Bu gün "Azersky" peyki sayəsində dünyanın istənilən nöqtəsinin yüksək ayırdetməli peyk təsvirlərinə birbaşa, qeyd-şərtsiz çıxış imkanı var. Ötən dövr ərzində "Azersky" peykinin xidmətlərindən kənd təsərrüfatı, xəritəçəkmə, infrastrukturun planlaşdırılması və monitorinqi, kadastr məlumatlarının yenilənməsi, dənizdə və quruda neft çirklənmələrinin tədqiqi, müdafiə, təhlükəsizlik və digər sahələrdə istifadə edilir. "Azerspace-1" peyki ilə yanaşı, "Azersky" da Azərbaycanın suverenliyinin qorunması və ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlara malikdir.

Belə ki, 2015-ci ildən etibarən "Azersky" peyki ölkənin müdafiə və təhlükəsizliyi üçün davamlı istifadə edilir. İşğal olunmuş ərazilərdə törədilmiş yanğınların mütəmadi olaraq monitorinqi və dəymiş ziyanın qiymətləndirilməsi aparılır. Bunlarla yanaşı, Azərbaycana qarşı müxtəlif informasiya təxribatlarının qarşısının alınmasında da "Azersky" peykinin imkanları tətbiq edilib.

Başlıca tətbiq sahəsi Azərbaycanın müdafiə və təhlükəsizliyinə xidmət etmək olan "Azersky" peykinin də kommersiya potensialı var. Peykin xidmətlərindən nəinki Azərbaycanda, eləcə də Fransa, Moldova, Latviya, Estoniya, Tacikistan, Özbəkistan və s. ölkələrdə aktiv istifadə olunur. Dəyəri 157 milyon Avro olan "Azersky" peykindən bugünədək 24 milyon dollar həcmində gəlir əldə edilib.

### "Azerspace 2" Azərbaycana 400 milyon dollar gəlir gətirəcək

Sentyabrın 26-da orbitə göndərilən sayca 3-cü peykimiz "Azerspace 2"nin orbitə buraxılması isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi ardıcıl tarixi nailiyyətlərin davamıdır. Bu həm də Azərbaycanın gücünü, nüfuzunu artıran faktordur.

Bakıda 29 ölkənin 224 şirkətinin qatıldığı "ADEX-2018" üçüncü beynəlxalq müdafiə sərgisinin keçirildiyi bir zamanda "Azerspace 2" peykinin orbitə buraxılması xəbəri əlbəttə ki, Azərbaycanı istəməyən qüvvələr üçün göz dağıdır.

Onu da vurğulayaq ki, süni peyklər strateji və təhlükəsizlik cəhətdən çox faydalıdır. Eyni zamanda iqtisadi cəhətdən səmərəlidir. Texnoloji baxımdan bu peyklər ölkəmizdə İKT- nin inkişafına, informasiya təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Bütün bunlar isə dövlətin güclənməsinə ve texnoloji cəhətdən daha da müasirləşməsinə böyük dəstəkdir.

"Azerspace 2" peyki ABŞ-ın "Space Systems/Loral" şirkəti tərəfindən yüksək etibarlı "SSL 1300" peyk platforması əsasında istehsal olunub. "Azerspace 2" peykinin orbitdə yanacaq ömrü minimum 20 il təşkil edəcək. Peyk hələ orbitə buraxılmamış artıq onun tutumlarının 46 faizi dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan "İntelsat" şirkətinə satılıb. Bu müqavilə üzrə ödənişlər layihə dəyəri və maliyyələşmə xərclərinin 60 faizinin geri qaytarılmasını təmin edəcək. Hazırda peykin qalan tutumlarının satışı ilə əlaqədar digər ölkələrlə aktiv biznes danışıqları aparılır. Ümumilikdə, dəyəri 190 milyon dollar olan "Azerspace 2" peykinin ölkə iqtisadiyyatına 400 milyon dollar gəlir gətirəcəyi proqnozlaşdırılır.

Yeni peykimiz - Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək.

### Dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilən ölkə

Azərbaycan artıq orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biridir. Əlbəttə ki, informasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır.

İlham Əliyevin 3-cü peykimizin orbitə göndərilməsi münasibəti ilə xalqa ünvanladığı təbrikdə söylədiyi kimi bu uğurla ölkəmiz telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığı aradan götürüb. Kosmik sənayedə əldə etdiyi uğurlar əlbəttə ki, ölkəmizin qeyri-neft sənayesinin davamlı inkişafına da böyük töhfə verəcək. Qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilən Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir, respublikamız dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

---

# Ən etibarlı sosial müdafiə vasitəsi iş yeridir

## *Təkcə bu ilin 6 ayında ölkədə 58 min daimi iş yeri açılıb*

Vətəndaşın dövlətə güvənməsinin başlıca şərti onun sosial müdafiəsinin təmin edilməsidir. Hər bir ölkə sakini əmin olmalıdır ki, lazım olanda sosial tələbləri dövlət tərəfindən qarşılanacaq. Sosial müdafiənin təminatının müxtəlif formaları var - pensiya, sosial müavinət, müxtəlif güzəştlər, təqaüdlər və s. Ancaq ən etibarlı sosial təminat iş qabiliyyəti olan vətəndaşın məşğulluğunun təmin edilməsidir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında əhalinin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsinin əhəmiyyətini qeyd edərək demişdir: "Sosial ədalət tam bərqərar olmalıdır və şəffaflıq tam təmin edilməlidir. Dövlət bu sahəyə çox böyük diqqət göstərir və mən dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə sosial cəhətdən az təmin edilmiş vətəndaş. Məhz buna görə biz ünvanlı sosial yardım sisteminə keçmişik.

Bizim özünüməşğulluq proqramına böyük ümidlərimiz var. Özünəməşğulluq proqramını icra etmək üçün indi kifayət qədər vəsait var. Hesab edirəm ki, hər il 6-7 min insan bu proqrama cəlb olunarsa, bir neçə ildən sonra heç sosial yardıma da ehtiyac qalmayacaq və insanlar öz halal zəhmətləri ilə pul qazanacaqlar, ailələrini saxlayacaqlar və ölkə iqtisadiyyatına töhfələrini verəcəklər".

Göründüyü kimi, dövlət başçısı əhalinin sosial müdafiəsində məşğulluğun təmin edilməsini əsas götürür. Çünki məşğul əhali özünün sosial problemlərini dövlətdən hər hansı bir güzəşt almadan təmin edir. Yeri gəlmişkən, Prezident iclasda onu da qeyd etmişdir ki, Azərbaycanda iş yerlərinin açılması prosesi daimi olmalıdır. Diqqəti cari ilin birinci yarısında 58 min daimi iş yerinin açılması ilə bərabər, 20 mindən çox iş yerinin bağlanmasına yönəldən dövlət başçısı vurğulamışdır ki, iş yerlərinin bağlanmasının səbəbini araşdırmaq və belə halları aradan qaldırmaq lazımdır.

Ölkədə iqtisadi fəallığın artması üçün ixracyönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiya təşviqi mexanizminin tətbiqi nəticəsiz qalmır. Bu yollarla sahibkarların dövlət tərəfindən dəstəklənməsi həmin yeni iş yerlərinin açılmasına səbəb olur. Təkcə bu ildə 251 sahibkarlıq subyektinə 283 investisiya sənədinin verilməsi nəticəsində 19 minədək yeni iş yeri açılıb.

Aqrar sektorda da yeni iş yerlərinin açılması üçün müvafiq tədbirlər görülür. Məsələn, cari ildə şəkər tozu istehsalının yerli xammal təminatının artırılması məqsədilə 7 min hektar sahədə şəkər çuğunduru əkini üçün illik 3 faizlə 7 milyon manat güzəştli kredit verilib, 1500 fermerlə müqavilə bağlanıb. Həmin müqavilələr üzrə 3600 nəfər işlə təmin olunub.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin avqust ayının 1-i vəziyyətinə ölkədə muzdla işləyənlərin sayı 1 milyon 543,1 min, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 881,8 min, qeyri-dövlət neft sektorunda 661,1 min nəfər olub. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin çoxu - 23,7 faizi istehsal sahəsində çalışır. Xidmət sahəsində isə işçilərin çox hissəsini təhsil sektorunda çalışanlar təşkil edir.

Dövlət işsiz vətəndaşların sosial müdafiəsini daim diqqətdə saxlayır. Cari il sentyabr ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilən şəxslərin sayı 35,4 min nəfər olub. Onların 37,1 faizi qadınlardır. Həmin dövrdə işsizlikdən sığorta ödənişinin orta məbləği 249,9 manat olub.

Bu ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artaraq 542,3 manat təşkil edib. Əməkhaqqı neft sektorunda 3142,7, qeyri-neft sektorunda 483 manata çatıb. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 428,6, özəl müəssisələrdə 696,7 manat olub. Hesabat dövründə mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksəkdir.

Əməkhaqqının yüksəlməsi əhalinin gəlirlərinin artmasına imkan yaradıb. Belə ki, cari ilin yanvar-avqust aylarında ölkə əhalisinin ümumilikdə nominal gəlirləri ötən ilin müvafiq dövrünə nisbətən 9,5 faiz artaraq 34 milyard 786,3 milyon manat olub. Əhalinin hər nəfərinə orta hesabla 3548,1 manat düşüb. Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 3 milyard 1930 milyon manat və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz çox vəsait qalıb.

Xərclərə gəldikdə, cari ilin yanvar-avqust aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 22 milyard 966,4 milyon manatlıq məhsul satılıb, xidmət obyektləri tərəfindən 5436 milyon manatlıq ödənişli xidmətlər göstərilib. Keçən ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,7, əhaliyə göstərilən ödənişli xidmətlərdən əldə olunan gəlir 2,8 faiz artıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı başlayıb

*Festival çərçivəsində Şamaxıda şeir-musiqi məclisi keçirilib*





Sentyabrın 27-də Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalına start verilib. Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən festivalın ideya müəllifi fondun vitse-prezidenti Leyla Əliyevadır. Möhtəşəm söz-sənət bayramı dahi sənətkarın doğulduğu Şamaxı şəhərindən start götürüb və dörd gün davam edəcək.

AZƏRTAC xəbər verir ki, festivalın birinci günü Şamaxıda İmadəddin Nəsiminin büstü önündə şeir-musiqi məclisi təşkil olunub. İmadəddin Nəsiminin (1369-1417) fəlsəfi baxışlarını əks etdirən "Simadan - asimana" və onun öz kəlamından götürülən "Zərrə mənəm, günəş mənəm..." şüarları ilə təşkil olunan mərasimdə Azərbaycanın tanınmış alimləri, yazıçı və şairləri, mədəniyyət və incəsənət xadimləri, xarici ölkələrdən, o cümlədən Rusiyadan, Çindən, ərəb ölkələrindən gələn qonaqlar iştirak ediblər.

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev Şamaxının qədim tarixi, böyük sənətkarları barədə danışıb, dahi mütəfəkkir İmadəddin Nəsiminin ədəbi yaradıcılığından, fəlsəfi baxışlarından bəhs edib. Vurğulayıb ki, Nəsiminin adı Azərbaycan xalqı üçün həmişə iftixar mənbəyi olacaq.

Sonra söz musiqiçilərə verilib. Xalq artisti Alim Qasımovun ifasında səslənən muğamlar iştirakçılarda Nəsimi dünyasının möcüzələrini yaşadıb.

Daha sonra festivalın iştirakçıları İmadəddin Nəsiminin qardaşı Şaxəndanın, habelə görkəmli şair Seyd Əzim Şirvaninin dəfn olunduqları Şaxəndan qəbiristanlığını ziyarət ediblər. Hələbdən gələn, İmadəddin Nəsiminin nəslindən olan Məhəmməd Nəsimi burada böyük şair və mütəfəkkirin qəbri üzərində dua oxuyub. O, bu anı ona bəxş edən festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna və fondun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlığını bildirib.

# Yeni ekspozisiyalar Şamaxı Tarix-Diyarşünaslıq Muzeyini daha da zənginləşdirib





Sentyabrın 27-də Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin yeni ekspozisiyalarla tərtibatından sonra açılışı olub.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Nəsimi - şeir, incəsənət və mədəniyyət festivalına gələn mədəniyyət və incəsənət xadimləri, xarici qonaqlar da iştirak ediblər.

Qonaqlar xoş musiqi, rəqs qrupunun çıxışları ilə qarşılanıb.

Rayon icra hakimiyyətinin başçısı Asif Ağayev tədbir iştirakçılarını salamlayaraq, Şamaxı Tarix-Diyarşünaslıq Muzeyində Azərbaycanın qədim, orta əsrlər və müasir tarixinə dair zəngin eksponatların olduğunu diqqətə çatdırıb.

Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin, ümumilikdə, bütün muzeylərimizin yeni eksponatlar hesabına daha da zənginləşdiyini bildirib, bu sahədə Heydər Əliyev Fondunun xidmətlərini vurğulayıb.



Sonra qonaqlara yeni eksponatlar, habelə ayrı-ayrı bölmələrdə nümayiş etdirilən eksponatlar barədə məlumat verilib.

Qeyd edək ki, dünya muzey standartları əsasında hazırlanan bu informativ ekspozisiya tarixi ardıcıllıqla, o cümlədən elektron vasitələrdən istifadə edilməklə Azərbaycan və ingilis dillərində təqdim olunur. Hazırda muzeyin yeddi mindən çox eksponatı var və ekspozisiyada Şamaxının ən qədim dövrlərdən başlayaraq son zamana qədər olan tarixi, arxeoloji tapıntı nümunələri və maddi-mədəniyyət abidələri, eləcə də etnoqrafik, epiqrafik və numizmatika nümunələri nümayiş etdirilir. Heydər Əliyev Fondunun Şamaxını təsvir edən XVII əsrə aid üç ədəd qravürü hədiyyə etməsi muzey üçün əlamətdar hadisə olub. Onlar Avropa ölkələrindən əldə edilərək Azərbaycana gətirilib. Qravürlər XVII əsrin məşhur alman səyyah və coğrafiyaçısı Adam Oleariyə, niderlandlı səyyah Yan Jansen Streysə və niderlandlı kitab naşiri Olfert Dapperə məxsusdur.

Yeni eksponatlarla, eləcə də muzeydə nümayiş etdirilən digər tarixi və maddi-mədəniyyət nümunələri ilə tanışlıq qonaqlarda böyük maraq doğurub.

# Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin 20-ci Qlobal Forumunun bağlanış mərasimi

Sentyabrın 27-də Bakıda Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin 20-ci Qlobal Forumunun bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Xüsusi Olimpiya Komitəsinin prezidenti Şahin Əliyev çıxış edərək bildirib ki, Gənc Liderlərin Qlobal Forumuna evsahibliyi etməklə biz hər bir gəncimizə - əqli məhdudiyyətləri olan və olmayanlara verdiyimiz dəyəri nümayiş etdiririk. Azərbaycan 25 ildir ki, Xüsusi Olimpiya Hərəkatının üzvüdür. Ölkəmizdə Olimpiya Hərəkatının inkişafı üçün hər cür şərait yaradılıb. Bu forum cəmiyyətdən təcrid olunduğunu hiss edən hər kəs üçün daha inklüziv dünyaya yeni körpü, ümid mayakı olacaq. Azərbaycanda Xüsusi Olimpiya Hərəkatına dəstək verən bütün qurumlara və Bakıya gələn qonaqlara təşəkkürümü bildirirəm".

Sonra çıxış edən Avropa və Avrasiya Xüsusi Olimpiya Hərəkatının prezidenti Devid Evangelista Bakıda Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin Qlobal Forumunun yüksək səviyyədə keçirilməsinə görə Azərbaycanın Gənclər və İdman Nazirliyinə minnətdarlığını bildirib. O deyib ki, Bakı bu misilsiz layihə üçün mükəmməl məkandır. Biz çalışacağıq ki, ailəmizin üzvlərinin sayını daha da artıraq və ən yüksək səviyyəyə qalxaq.

Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev və digər çıxış edənlər Forumun əhəmiyyətindən danışıblar. Bildirilib ki, əqli məhdudiyyəti olan və olmayan 120 gənc lider sentyabrın 24-dən 28-dək Bakıda keçirilən və inklüzivliyi təşviq edən forumda iştirak edib. Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərinin 20-ci Forumu Xüsusi Olimpiya Hərəkatının 50-ci ildönümünə həsr olunmuş əsas tədbirlərdən biridir.

Qeyd edilib ki, forum zamanı dünyanın müxtəlif yerlərindən gəlmiş gənc liderlər əlavə olaraq daha yaşlı 100 liderin iştirakı ilə öz ölkələrində inklüziv cəmiyyətlər formalaşdırmaq məqsədilə qrup layihələrini hazırlayıblar. Bakı forumu başa çatdıqdan sonra gənc liderlər öz ölkələrində həyata keçirəcəkləri layihələri tərtib edəcəklər. Bu layihələr Beynəlxalq Xüsusi Olimpiya Fondunun qrantları ilə dəstəklənəcək. Beş günlük forum Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, habelə "Lions Clubs International", "Stavros Niarchos Foundation" və digər təşkilatlar tərəfindən dəstəklənib.

Xüsusi Olimpiya Hərəkatının növbəti 50 il ərzində əsas məqsədlərindən biri dünya miqyasında "Vahid məktəblər" adlanan məktəb proqramları vasitəsilə gənclərin cəlb olunmasını təşviq etmək və əqli məhdudiyyətləri olan və olmayan gəncləri inklüziv idman və liderlik vasitəsilə bir araya gətirən "Vahid nəsil" proqramının hazırlanmasıdır.

Forum müddətində gənc liderlər öz ölkələrində, şəhərlərində, məktəblərində və icmalarında sosial inklüzivliyə nailolma sahəsində anlayışlarını inkişaf etdirəcək və genişləndirəcəklər. Onlar liderlik və sosial dəyişiklik sahəsində dünya miqyasında tanınmış ekspertlərdən yeni strategiyaları və fəaliyyətləri öyrənəcəklər. Bu isə Xüsusi Olimpiya Hərəkatı Vahid İdman Platformasından istifadə etməklə daha inklüziv dünyanı təşviq etməyə kömək edəcək.

Vətənlərinə qayıtdıqdan sonra gənc nümayəndə heyətləri müxtəlif inklüzivlik layihələrini təklif edəcəklər. Bu layihələr Xüsusi Olimpiya Hərəkatı Gənclər üçün İnnovasiya Qrantları təşəbbüsü vasitəsilə dəstəklənəcək. Nəticədə 8500-dən çox gənc bütün dünyada 250 yeni Vahid Məktəb və idman klubunda inklüziv idman və liderlik fəaliyyətinə cəlb olunacaq.

# Bakıda keçirilən "ADEX-2018" üçüncü Beynəlxalq Müdafiə Sərgisi başa çatıb









Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda keçirilən "ADEX-2018" üçüncü Beynəlxalq Müdafiə Sərgisi sentyabrın 27-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, üç gün davam edən sərgidə Türkiyə, Fransa, İsrail, Rusiya, Belarus, Pakistan, Çin və sair dövlətlər daxil olmaqla dünyanın 29 ölkəsindən 224 şirkət iştirak edib. İştirak edən dövlətlərdən 11 ölkə - Azərbaycan, Türkiyə, Rusiya, Fransa, Belarus, Çin, Pakistan, İsrail, İran, Ukrayna və Serbiya milli pavilyonları ilə təmsil olunublar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərgi iştirakçılarına təbrik məktubu ünvanlaması və sərgidə şəxsən iştirak etməsi "ADEX-2018"in əhəmiyyətini daha da artırdı. Dövlət başçısı bildirdi ki, "ADEX" sərgisi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, o cümlədən rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün səmərəli platformaya çevrilib.

Dövlət başçısı ziyarət zamanı Müdafiə Sənayesi Nazirliyinin stendində oldu və nümayiş etdirilən məmulatlarla yaxından tanış oldu.

Sərgini Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov, müdafiə naziri Zakir Həsənov və digər qurumların rəhbərləri də ziyarət ediblər. Dövlət rəsmiləri nümayiş etdirilən yerli məmulatları böyük maraqla izləyiblər.

"ADEX-2018" sərgisində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan məmulatlardan - 7,62 millimetrlik AZ-50 tipli avtomat, 7,62x54 millimetrlik HP-7,62 tipli hücum pulemyotu, 8,6x70 millimetrlik "Vaşaq" snayper tüfəngi, 12,7x108 millimetrlik "Mübariz" snayper tüfəngi, 12,7x108 millimetrlik ST-12,7 tipli iriçaplı snayper tüfəngi, 23x115 millimetrlik İST-23 tipli iriçaplı snayper tüfəngi, 14,5x114 millimetrlik NST-14,5 tipli iriçaplı snayper tüfəngi, 12,7 millimetrlik iriçaplı NSVT-12,7 tipli pulemyotlu məsafədən idarə olunan döyüş modulu ilk dəfə idi ki, nümayiş etdirilirdi. Nümayiş etdirilən məmulatlardan AZ-50 tipli avtomat, HP-7,62 tipli hücum pulemyotu, ST-12,7 tipli iriçaplı snayper tüfəngi, İST-23 tipli iriçaplı snayper tüfəngi və digər məmulatlar iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

Sərgi çərçivəsində müdafiə sənayesi nazirinin müavini Yəhya Musayevin sərgiyə qatılan ölkələrdən Türkiyə, Rusiya, Belarus, Ukrayna, İran, Özbəkistan, Serbiya, Sudan və digər ölkələrin rəsmi nümayəndə heyətləri, şirkət rəhbərləri ilə görüşləri olub. İkitərəfli görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr aparılıb. Eyni zamanda, nazirliyin aidiyyəti qurum rəhbərlərinin də bir sıra görüşləri olub, mövcud əməkdaşlıqların davam etdirilməsi və yeni əməkdaşlıqların qurulmasına dair danışıqlar aparılıb.

Görüşlərdə xarici nümayəndə heyətləri tədbirin yüksək səviyyədə təşkil edildiyini, sərgidə iqtisadiyyatın hərbi və müdafiə sahələrini təmsil edən dünyanın bir sıra tanınmış brendlərin geniş tərkibdə təqdim edildiyini xüsusi vurğuladılar.

Beynəlxalq nümayəndə heyətlərinin və xarici şirkətlərin "ADEX-2018" sərgisinə böyük maraq göstərməsi Azərbaycanın həm mühüm strateji tərəfdaş, həm də regionda etibarlı əlaqələrin rəmzi kimi yüksək rol və əhəmiyyətini bir daha təsdiq etdi.

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi Türkiyə, Rusiya, Fransa, Belarus, İsrail, Pakistan, Çin, Ukrayna, Bolqarıstan, Qazaxıstan, Belarus və digər ölkələrin stendlərini ziyarət edib, nümayiş etdirilən məmulatlarla yaxından tanış olub.

Sərgi çərçivəsində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ilə Türkiyənin "ASELSAN" şirkəti arasında rabitə vasitələrinin birgə istehsalına dair əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Eyni zamanda, Müdafiə Sənayesi Nazirliyi ilə Müdafiə Nazirliyi arasında Silahlı Qüvvələrin rabitə vasitələrinin təchizatına dair anlaşma memorandumu imzalanıb.

Sərginin əhəmiyyətini və sərgiyə olan marağı nəzərə alaraq tədbirin üçüncü günü "Açıq gün" olub.

Sərgini ziyarət edənlər arasında yerli və beynəlxalq mütəxəssislər, hərbi ekspertlər, hərbçilər, eləcə də dövlət strukturlarının və şirkətlərin nümayəndələri, Azərbaycan Texniki Universitetinin Xüsusi texnika və texnologiya fakültəsinin tələbələri və eyni zamanda, sıravi vətəndaşlar da olub.

Tədbirin keçirildiyi üç gün ərzində nümayiş etdirilən məmulatlara izləyicilər tərəfindən göstərilən böyük maraq sərginin əhəmiyyətini əks etdirdi. "ADEX-2018" sərgisinə, eyni zamanda, yerli və xarici kütləvi informasiya vasitələri tərəfindən də böyük maraq göstərilib. Sərginin gedişi ilə bağlı mütəmadi olaraq dolğun informasiyalar yayılıb.

# "Polonez"lərin yeni partiyası Azərbaycana gətirilib





"Polonez"lərin yeni partiyası Azərbaycana gətirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında hökumətlərarası razılaşmaya əsasən 301 millimetrlik "Polonez" əməliyyat-taktiki raket komplekslərinin növbəti partiyası ölkəmizə gətirilib.

# İsmayıllıda regional seminar

Dünən İsmayıllı rayonunda Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Təbii Sərvətlər və Həyat Elmləri Universitetinin texniki və elmi dəstəyi ilə "Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində potensialların artırılmasına dəstək" layihəsi çərçivəsində regional seminar keçirilib. "Azərbaycanda DİM-lərin icrası üçün yerli dövlət özəl fərdi şəxslər arasında əməkdaşlıq" mövzusu seminarın gündəliyində olub.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov regional seminarı açaraq qeyd edib ki, seminarın təşkilatçıları, xüsusilə FAO-nun Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi, onun rəhbəri xanım Mələk Çakmak çox xeyirxah bir məqsədlə bu rayona gəlib. Burada iştirak edən fermerlər, kənd təsərrüfatı işçiləri, özəl iş sahibləri, mütəxəssislər diqqətlə öyrəndiklərini öz fəaliyyət sahələrində tətbiq etməklə



uğurları artıra bilərlər. O deyib ki, kənd təsərrüfatı istehsalını artırmaq üçün zamana uyğun aqrar idarəetmə metodlarına diqqət yetirilməlidir. Kiçik torpaq sahibkarlığına son qoyub, kooperativlər, aqrokomplekslər, aqrokombinatlar yaratmaqla yeni təsərrüfatçılığa keçmək məqsədəuyğundur. Torpaq sahibləri arasında torpaq yox, ondan götürülən məhsul bölünsə daha yaxşıdır. Artıq İsmayıllıda belə nümunələr var.

Sonra tədbiri FAO-nun tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri FAO-nun nümayəndəsi Mələk Çakmak aparıb.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbovun mövcud vəziyyətə əsaslanan çıxışı seminar iştirakçıları tərəfindən yüksək səviyyədə dəyərləndirilib.

Vyana Universitetinin İnkişaf Tədqiqatları Mərkəzinin əməkdaşı Həmid El Bilali "Dayanıqlı inkişaf üçün 2030-cu il gündəliyində ərzaq və kənd təsərrüfatı" mövzusunda çıxış edib. İştirakçı fermerlərə və iş adamlarına dəyərli məsləhətlər verib.

Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova FAO-nun iqtisadi qurumlarla əməkdaşlıq şəraitində gördüyü işlərin yüksək nəticələrindən danışıb.

Proqram, monitorinq və qiymətləndirmə üzrə mütəxəssis Natəvan Aslanovanın "FAO-nun Azərbaycanda DİM-lərin tətbiqinə dəstəyi" mövzusunda çıxışı dinlənilib.

Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Həsən Quliyev, İqtisadi və Sosial İnkişaf Mərkəzinin əməkdaşı Əhməd Əlili, İsmayıllı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Həsən Həsənov, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının hüquq şöbəsinin müdiri Xəqan Hümmətov və "Azza-aqro" MMC-nin şöbə müdiri Nicat Vəliməmmədov gündəlikdə olan mövzularla bağlı çıxış ediblər.

Seminar suallar cavablandırılmaqla yekunlaşıb.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Azərbaycanın BMT-dəki nümayəndə heyəti Baş Assambleyanın 73-cü sessiyasının ümumi müzakirələrində Ermənistanın baş nazirinin bəyanatına cavab verib

BMT Baş Assambleyasının 73-cü sessiyasının ümumi müzakirələrində Ermənistanın baş nazirinin bəyanatına cavab haqqından istifadə edən Azərbaycan nümayəndə heyəti bəyanat yayıb.

Bəyanatda deyilir: "Biz dünən Ermənistanın baş naziri tərəfindən ümumi müzakirədə edilmiş bəyanata cavab vermək üçün çıxış istədik.

İlkin təəssürat ondan ibarətdir ki, natiq özünün adlandırdığı "Məxmər inqilab"ın hələ də təsiri altındadır və populist, olduqca ziddiyyətli ritorikadan çıxış edərək BMT Baş Assambleyasını Gümrü və Yerevan küçələri ilə səhv salıb.

Baxmayaraq ki, Ermənistanın baş naziri ölkəsinin hakimiyyətdən salınmış hökumətini avtoritar idarəetmə, korrupsiya, demokratiya və insan hüquqlarını pozmaqda günahlandırmaq üçün söz seçimində qətiyyətli deyildi, onun Ermənistan və Azərbaycan arasında davam etməkdə olan münaqişə ilə bağlı verdiyi şərhlər sələflərinin keçmişdə inadkarcasına istifadə etdiyi frazeologiyadan çox az fərqlənirdi. Nəticədə, Ermənistan baş nazirinin bəyanatı Azərbaycana qarşı müharibənin başlanılması və onun ağır nəticələrinə görə məsuliyyəti və faktları rədd etmək üçün növbəti uğursuz cəhdə çevrildi.

Məlumdur ki, Ermənistan Dağlıq Qarabağ, ətraf yeddi rayon və bəzi eksklavlar da daxil olmaqla, Azərbaycan ərazilərinin bir hissəsini zəbt etmək və orada özünə tabe olan kiçik irqçi rejim qurmaq üçün hərbi qüvvədən istifadə edib. Ermənistanın başladığı müharibə on minlərlə insanın həyatına bais olub, şəhərləri, rayonları, kəndləri viran qoyub, bir milyondan çox azərbaycanlının öz doğma evlərindən və mülklərindən zor gücünə qovulması ilə nəticələnib və münaqişə nəticəsində minlərlə insan hələ də itkin düşmüş hesab edilir.

Ermənistanın baş nazirinin bəyanatında müşahidə etdiyimiz iddia və yanlış yozmalar xüsusilə heyrət doğurur. Çünki bunlar Təhlükəsizlik Şurasının Azərbaycana qarşı gücdən istifadəni, onun ərazilərinin bombalanmasını və işğalını pisləyən, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörməti, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazilərin tutulması üçün gücdən istifadənin qəbuledilməzliyini təsdiq edən BMT-də səsləndi.

Bundan əlavə, Ermənistanın ərazi iddiaları və güc tətbiqinə cavab olaraq, Şura bir daha təsdiq edib ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və tələb edib ki, işğalçı qüvvələr dərhal, tamamilə və qeyd-şərtsiz bütün işğal olunmuş torpaqlardan çıxsınlar.

Başqa sözlə, Təhlükəsizlik Şurası bu qətnamələrdə Azərbaycana qarşı hərbi güc tətbiq olunması faktını, bu hərəkətlərin qanunsuz olduğunu, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi ilə ziddiyyət təşkil etdiyini, beynəlxalq münasibətlərdə hərbi gücdən istifadənin qadağan olunmasına uyğun gəlmədiyini və onların Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün açıq şəkildə pozulması olduğunu etiraf edib.

Təəccüb doğurmur ki, Ermənistanın baş naziri öz çıxışında bilərəkdən Təhlükəsizlik Şurasının qətnamələri üzərindən sükutla keçdi. Eynilə o, münaqişə ilə bağlı qəbul edilmiş digər mühüm sənədlərə də istinad etmədi.

Ermənistanın bəyan etdiyi öhdəlikləri və əməlləri münaqişənin sülh yolu ilə həlli məqsədinə heç vaxt uyğun gəlməyib. Ermənistanın baş nazirinin bəyanatı heç də istisna deyil. Həqiqətdə, suveren dövlətin ərazisini işğal etmək üçün hərbi gücdən istifadə etməklə Ermənistan siyasi həll yoluna alternativin olmasına qəti inamını nümayiş etdirdi.

Erməni xalqına qarşı yeni mifik soyqırımı təhlükəsi haqqında iddialar növbəti yalanın göstəricisidir. Sadəcə onu qeyd etmək yetərlidir ki, həm öz, həm də işğal etdiyi Azərbaycan torpaqlarında bütün qeyri-ermənilərdən tam etnik təmizləmə həyata keçirən Ermənistandan fərqli olaraq, Azərbaycan bu günədək etnik və mədəni müxtəlifliyini qoruyub saxlayıb, paytaxt Bakı şəhərində və ölkənin digər bölgələrində sülh, harmoniya və şərəflə həyat sürən on minlərlə erməninin evidir.

Ermənistan rəhbərliyinin demokratiya, insan hüquqları və münaqişənin sülh yolu ilə həlli bəyanatları cəfəngiyatdır və onlar Azərbaycan ərazilərinin işğalına son qoyulması, məcburi didərgin düşmüş azərbaycanlıların şərəf və ləyaqətlə Dağlıq Qarabağda və işğal olunmuş digər ərazilərdəki evlərinə və yurdlarına geri qayıtmalarının təmin edilməsinə gətirən əsl fəaliyyətə çevrilməyənədək boş söz olaraq qalacaq.

Kompromis yox, vacib olan bu məqsədə nail olunması Azərbaycanın konstitusional və hüquqi çərçivəsi daxilində Dağlıq Qarabağ bölgəsinin hər iki icmasının bərabər və tam iştirakı ilə digər məsələlərin cavablandırılması üçün lazımı şərtlər yaradacaq.

Ermənistanın işğalçı və müstəmləkəçilik siyasətinin məqsədinə çatmaq şansı yoxdur. Dağlıq Qarabağ hər zaman Azərbaycanın ayrılmaz hissəsi olub və belə də olacaq. Azərbaycan torpaqlarının işğalı müvəqqətidir və Ermənistan tərəfindən heç vaxt arzu edilən nəticələri verməyəcək. Yerevan öz xalqını və beynəlxalq ictimaiyyəti yanıltmaq kimi faydasız cəhdlərindən əl çəkməli, münaqişənin həlli prosesində konstruktiv şəkildə iştirak etməli və öz beynəlxalq öhdəliklərini yerinə yetirməlidir".

# Bakıda Qafqaz regionunda cərəyan edən proseslər, ermənilərin geosiyasi iddiaları barədə müzakirələr aparılır

Sentyabrın 27-də Bakıda Türkiyə Respublikasının Türk Tarix Qurumu (TTQ) və Strateji Düşüncə İnstitutunun (SDİ) birgə təşkilatçılığı, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun dəstəyi ilə "Qafqaz: tarix, çağdaş dövr, gələcək" mövzusunda beynəlxalq konfrans işə başlayıb.






AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna və digər ölkələrdən olan tanınmış alim və mütəxəssislər iştirak edirlər.

SDİ-nin rəhbəri Məhəmməd Savaş Kafkasyalı rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib. Tarix İnstitutu ilə SDİ arasında əməkdaşlığa dair imzalanan müqaviləni xatırladan alim sənədə əsasən, Azərbaycan, Türkiyə və digər türk-müsəlman respublikalarının tarixindəki strateji əhəmiyyətli problemlərin müəyyənləşdirildiyini və bu istiqamətdə birgə tədqiqatların aparıldığını deyib.

Məhəmməd Savaş Kafkasyalı konfransın Qafqazın tarixinin öyrənilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna rolu olduğunu deyib. Bildirilib ki, ulu öndərin "Bir millət, iki dövlət" kəlamı bu gün dövlətlərimizin başçılarının timsalında daha da güclənib. Bu gün Azərbaycan və Türkiyə bütün məsələlərdə eyni mövqedən çıxış edir, beynəlxalq təşkilatlarda bir-birinə daim dəstək verir. Bu yaxınlarda Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda iki ölkənin dövlət başçılarının iştirakı Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığını, əbədiliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

Konfransın elmi-siyasi və strateji əhəmiyyət daşıdığını deyən İ.Həbibbəyli tədbirin fikir və təcrübə mübadiləsi, əlaqələrin genişləndirilməsi baxımından da önəmini vurğulayıb. Bildirilib ki, ölkələrimizin elmi qurumlarının birgə təşkilatçılığı ilə keçirilən bu kimi konfranslar Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha da dərinləşməsinə xidmət edir.

Akademik diqqətə çatdırıb ki, Qafqaz dünyanın bir çox dövlətlərinin diqqət mərkəzində və maraq dairəsində olan həssas siyasi duruma malik regiondur. Bu bölgə, eyni zamanda, terror hadisələri, risklər və təhdidlərlə doludur. Tədbir bu problemlərin dərindən araşdırılması, bölgədə cərəyan edən hadisələrin öyrənilməsi və mürəkkəb proseslərin qarşısının alınması üçün elmi əsaslandırılmış proqnozların verilməsi baxımından əhəmiyyətlidir. Həmçinin Qafqazdakı münaqişələrin öyrənilməsi də konfransın diqqət mərkəzindədir. Çünki Qafqazda sülhün və sabitliyin bərpa olunması geniş mənada regionda, bütövlükdə isə beynəlxalq miqyasda sülhə və sabitliyə böyük töhfə verə bilər.

Qafqazın ən böyük probleminin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olduğunu deyən akademik bildirib ki, mənfur qonşularımızın "Böyük Ermənistan" xülyaları artıq dünya alimlərinə də məlumdur. AMEA-da Qafqazşünaslıq İnstitutunun yaradıldığını xatırladan İ.Həbibbəyli bu elm müəssisəsində Azərbaycan tarixi, eləcə də Qafqaz regionu ilə bağlı elmi tədqiqatların aparıldığını vurğulayıb.

TTQ-nin sədri, professor Rəfiq Turan Qafqaz regionundakı xalqların özünəməxsus xüsusiyyətlərə, ortaq köklərə, oxşar mədəniyyətə malik olduğunu qeyd edib. Vurğulanıb ki, bu bölgənin zənginliyinin əsas səbəblərindən biri böyük tarixə malik olması və müxtəlif vaxtlarda insanların buraya köçmələridir.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov bildirib ki, müstəqil Azərbaycan dövləti böyük tarixə malik Qafqaz regionunda sülhün, sabitliyin bərqərar olması üçün ciddi addımlar atır. Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə araya-ərsəyə gətirdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri iqtisadi əhəmiyyəti ilə yanaşı, Qafqaz xalqları arasında münasibətlərin formalaşmasına da mühüm töhfələr verməkdədir. O deyib: "Tədbiri keçirməyin əsas məqsədi dünyanın diqqətini Qafqazdakı münasibətlərə yönəltməkdir. Həmçinin ermənilərin bir əsrdən çox müddətdə müxtəlif bölgələrdə törətdikləri soyqırımlarının, Dağlıq Qarabağ münaqişəsi ətrafında yaratdıqları uydurmaların əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırmaqdır".

Konfransda müzakirə ediləcək məsələlərin aktuallığını vurğulayan akademik bildirib ki, region tarixçilərinin, xüsusən də qafqazşünasların bölgədəki vəziyyətin, qloballaşmanın öyrənilməsində rolları böyükdür. Bu tədbir bizə gələcəkdə birgə işləmək, əlaqələrimizi möhkəmləndirmək baxımından böyük üstünlüklər vəd edir.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, rusiyalı jurnalist Aleksandr Qoryanin və başqaları çıxış edərək Qafqaz regionunda cərəyan edən proseslər, ermənilərin geosiyasi iddiaları və digər məsələlər barədə müzakirələr aparıblar.

Sonra Azərbaycan tarixçilərinin "Qafqaz tarixində Azərbaycan Albaniya dövlətinin yeri və rolu", "Qafqaz tarixində miqrasiya prosesləri: kimmerlər, iskitlər və saklar", "Qafqaz tarixində Dərbənd", "Arxiv sənədlərində Azərbaycanın əhalisi (XVIII - XIX əsrin əvvəlləri)", "Çar Rusiyasının Cənubi Qafqazda erməni dövləti yaratmaq siyasəti", "XX əsrin əvvəllərində Cənubi Qafqazın türk-müsəlman əhalisinə qarşı soyqırımları", "Bolşevik Rusiyasının türk dünyasını parçalamaq siyasəti və Qərbi Zəngəzurun ermənilərə verilməsi", "Azərbaycanın tarixi taleyində neft problemi" və digər mövzularda məruzələri dinlənilib.

Konfrans işini "Tarix və mədəniyyət", "Siyasət", "İqtisadiyyat", "Keçmişdən günümüzə Qafqazın tarixində regional məsələlər" və "Qafqazın gələcəyi" bölmələri üzrə davam etdirib.

Tədbir sentyabrın 28-də yekunlaşacaq.

# Vatikanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənə ilə qeyd edilib





Heydər Əliyev Fondunun və ölkəmizin Fransa və Müqəddəs Taxt-Tacdakı səfirliyinin təşkilatçılığı ilə Vatikanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənə ilə qeyd olunub.



AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr edilmiş foto və video materiallardan ibarət sərgi ilə tanış olublar. Birinci respublikanın təsisçilərinin görüşlərini, Müstəqillik Bəyannaməsini, iqtisadiyyatımızın şah damarı-neft sənayesinin inkişafını əks etdirən sərgi tədbir iştirakçılarının böyük marağına səbəb olub. İştirakçılara italyan dilində ölkəmizin tarixinə dair nəşrlər təqdim edilib.

Müqəddəs Taxt-Tacın "Cancelleria" Sarayında təşkil olunmuş ziyafətdə ölkəmizin Fransa və Müqəddəs Taxt-Tacdakı səfiri Rəhman Mustafayev çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından və onun qısa müddət ərzində əldə etdiyi nailiyyətlərdən, bütün sahələrdə həyata keçirilmiş islahatlardan, quruculuq işlərindən söz açıb.

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını, Azərbaycanda həmin dövr üçün mütərəqqi hesab olunan dövlət institutlarının, çoxpartiyalı sistemin, plüralist parlamentin təsis edildiyini, etnik mənsubiyyətindən, cinsindən, dinindən və sosial vəziyyətindən asılı olmayaraq, vətəndaşların bərabər hüquqlara malik olduğunu qeyd edib. Səfir Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövr ərzində qazanılan nailiyyətlərdən bəhs edərək, dövlət quruculuğu sahəsində həyata keçirilmiş tədbirlərin, ölkənin himninin, bayrağının və gerbinin təsis olunmasının Azərbaycan tarixində yeni şərəfli səhifə açdığını bildirib. Azərbaycan Xalq Cümhuriyyətinin ən mühüm nailiyyətlərindən birinin qadınlara səsvermə hüququnun verilməsi olduğunu vurğulayıb. Bildirilib ki, birinci respublikanın nailiyyətlərini izləyən böyük dövlətlərin nümayəndələri onun rəhbərlərini alqışlayıblar. 1919-cu ildə Britaniyanın Qafqaz üzrə ali komissarı Oliver Uoldrop deyib ki, Azərbaycan Zaqafqaziyanın digər etnik qrupları üçün ən yaxşı nümunədir.

Səfir əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində bu gün ölkəmizin beynəlxalq aləmdə layiqli yer tutduğunu vurğulayıb. O, müasir müstəqil Azərbaycanın iqtisadi inkişafı, sabitliyi və balanslaşdırılmış xarici siyasəti haqqında danışıb. Qeyd edib ki, Ermənistanın ölkəmizə qarşı təcavüzünə baxmayaraq, Azərbaycan regionun lider dövlətinə çevrilib, Bakı qitələri birləşdirən böyük layihələrə imza atıb.

2019-cu ilin yanvar ayında Müqəddəs Taxt-Tac ilə ölkəmiz arasındakı əlaqələrin 25 ilinin tamam olacağını bildirən R.Mustafayev bu müddət ərzində ikitərəfli əlaqələrin bütün sahələrdə yüksək səviyyəyə çatdığını və dinamik inkişaf etdiyini vurğulayıb. Qarşılıqlı hörmətə, fəal dialoqa və qarşılıqlı faydalı əməkdaşlığa əsaslandığını diqqətə çatdırıb.

Siyasi sahədə dövlət rəhbərlərinin qarşılıqlı səfərlərinin, xüsusilə də 2002-ci ildə Roma Papası II İohan Pavelin və 2016-cı ildə Papa Fransiskin ölkəmizə səfərləri, eləcə də Vatikanın xarici işlər naziri, arxiyepiskop Pol Riçard Qallaxerin bu il ölkəmizə səfəri çərçivəsində ikitərəfli və beynəlxalq münasibətlər sahəsində aktual məsələlərin müzakirə olunduğunu bildirib. Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tac arasında sıx əməkdaşlıqdan və bu birgə fəaliyyətin bəhrələrindən danışıb. Əməkdaşlıq çərçivəsində Vatikanın tarixi və mədəniyyətinin nadir rəmzlərinin bərpası, Müqəddəs Marçellinio və Pietro katakombaları, eləcə də Vatikan muzeyində Zevsin heykəlinin, Sikstin kapellasında divar şkaflarının bərpa edildiyini diqqətə çatdırıb.

Heydər Əliyev Fondu tərəfindən bərpa edilən, 2 min ildən artıq yaşı olan Müqəddəs Sebastian katakombalarının açılışından danışıb.

Elmi sahədə Vatikan Mədəniyyət Şurasının və Apostol kitabxanasının dəstəyi ilə arxiv tədqiqatlarının aparıldığını, Orta əsrlər Azərbaycan mütəfəkkirləri Nizami, Füzuli və Nəsimi haqqında oxuculara məlum olmayan yeni məlumatların əldə edildiyini bildirib. Ölkəmizin Müqəddəs Taxt-Tacla çoxşaxəli əməkdaşlığını və dialoq yolunu davam etdirmək əzmində olduğunu vurğulayıb.

Müqəddəs Taxt-Tacın Mədəniyyət işləri üzrə şuranın sədri, kardinal Canfranko Ravazi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikan səfərinə toxunaraq, iki dövlət arasında siyasi, mədəniyyətlərarası və dinlərarası dialoq sahələrində əlaqələrin yüksək səviyyəsindən söz açıb. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən mühüm layihələr haqqında ətraflı məlumat verib. Əhalisinin əksəriyyəti müsəlman olmasına baxmayaraq, ölkəmizin xristian dini mədəni irs abidələrinin bərpasına dəstək verməsini dinlərarası dialoqun bariz nümunəsi olduğunu vurğulayıb.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş ziyafət Xalq Artisti Ənvər Sadıqov və Əməkdar Artist Emil Əfrasiyabın rəhbərliyi ilə Azərbaycan incəsənət ustalarının ifasında milli musiqi proqramı ilə davam edib.

Tədbir çərçivəsində ziyafət və sərgi salonlarında böyük ekranda ölkəmizin mədəniyyətindən, təbiətindən, iqtisadi uğurlarından, evsahibliyi etdiyi böyük beynəlxalq tədbirlərdən bəhs edən sənədli film nümayiş olunub.

Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Sebastian kilsəsində bərpa edilmiş katakombalarla bağlı nəşrlər tədbir iştirakçılarına hədiyyə edilib.

# Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 79 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 79 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan kəndində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı və Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altındakı Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## "Azərişıq"ASC elektrik qurğuları və avtomobil ehtiyat hissələrinin satın alınması üzrə açıq tender elan edir

*Təkrar*

Tender 4 (dörd) LOT üzrə keçirilir:
LOT-1 Akkumulyatorların satın alınması - 400 manat
LOT-2 Mühərrik yağlarının satın alınması - 400 manat
LOT-3 Avtomobil şinlərinin satın alınması - 400 manat
LOT- 4 Paylayıcı qurğuların satın alınması - 400 manat

"Azərişıq" ASC
VÖEN: 9900069391
Hesab №: AZ83AIIB33020029441802068118
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Rövşən Əsgərov (telefon: 440-39-93 daxili (22-33))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 oktyabr 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 24 oktyabr 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 oktyabr 2018-ci il tarixdə saat 16:00-da Ələsgər Qayıbov küç, 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*



Azərbaycan Parlamenti - 100



XX əsrin əvvəlində müsəlman Şərqində ilk demokratik respublika - Xalq Cümhuriyyəti quran və parlamentarizmin əsasını qoyan xalqımızın dövlətçilik tarixinin yeni səhifələri yazıldı. 1917-ci ilin fevralında Rusiyada baş verən inqilab nəticəsində mərkəzdənqaçma meyilləri gücləndi. Rusiya Dövlət Dumasına seçilmiş Cənubi Qafqazdan olan deputatlar əvvəlcə Xüsusi Komitə, noyabr ayında isə Zaqafqaziya Komissarlığı yaratdılar. 1917-ci il noyabrın 26-29-da Rusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə azərbaycanlılar 14 yer qazanmışdılar. 1918-ci ilin yanvarında Müəssislər Məclisi buraxılmış, fevralın 22-də Cənubi Qafqazdan seçilmiş nümayəndələr Zaqafqaziya Seyminin yaradılması, hakimiyyətin onlara verilməsi haqqında qərar qəbul etdilər və müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradıldığını elan etdilər. Zaqafqaziya Seymində Azərbaycandakı 4 siyası partiyanın 44 nümayəndəsi seymin müsəlman fraksiyası adı altında təmsil olundu.



# Tariximizin şanlı və ibrətamiz səhifəsi

Zaqafqaziya Seymində xarici və daxili amillərin sayəsində ümumi dil tapmaq çətinləşirdi. Mayın 26-da Zaqafqaziya Seymi özünün axırıncı iclasını keçirdi. Ertəsi gün Gürcüstanın müstəqilliyi bəyan edildi. Mayın 27-də seymin müsəlman fraksiyası Azərbaycan Milli Şurasını elan etdi, onun rəyasət heyəti seçildi. Müsavat Partiyasının təmsilçilərinin təklifi ilə M.Ə.Rəsulzadə şuranın sədri oldu.

Mayın 28-də Azərbaycan Milli Şurasının 44 üzvündən 26-sının imzaladığı dövlət müstəqilliyi haqqında bəyannamə (Əqdnamə) ilə türk-müsəlman dünyasında parlamentli respublikanın yaranmasının əsası qoyuldu. Azərbaycanın öz müstəqilliyini elan etməsi haqqında mayın 30-da hökumətin başçısı Fətəli xan Xoyskinin imzası ilə dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqraf göndərildi. Sonralar Əsas Qanunun - Konstitusiyanın qəbul edilməsi mümkün olmadığı üçün "İstiqlal Bəyannaməsi" Xalq Cümhuriyyətinin süqutunadək bir növ Konstitusiyanı əvəz etmişdir.

Bəyannamənin 6-cı maddəsində qeyd edilirdi ki, Məclisi - Məbusan (yəni parlament) toplanıncaya qədər Azərbaycana xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan müvəqqəti hökumət rəhbərlik edəcək. İyunun 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ilə Azərbaycan hökuməti arasında gərginlik yaranmışdı. Belə mürəkkəb vəziyyətdə Milli Şura fəaliyyət göstərməyin mümkün olmadığını görüb, daha əlverişli vaxta qədər özünü buraxmağa məcbur olmuş və səlahiyyətlərini Fətəli xan Xoyski hökumətinə həvalə etmişdi. Ona görə də hökumət həm qanunverici, həm də icraedici orqan funksiyasını ifa edirdi.

Həmin dövrdə Bakı erməni-bolşevik qüvvələrinin işğalı altında idi. İyunun 12-də Bakı Sovetinin hərbi qüvvələri Gəncə üzərinə hücuma keçmişdi.

Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda çox çətin şəraitdə mübarizəyə başlayan müvəqqəti milli hökumətin fəaliyyətinin Gəncə dövrünün ilk günləri milli dövlətçiliyimiz üçün çox əhəmiyyətli bir sıra qərarların - Azərbaycanda hərbi vəziyyət elan edilməsi (19 iyun 1918-ci il), Azərbaycan Milli Ordusunun (Korpusunun) yaradılması (26 iyun 1918-ci il), türk dilinin (Azərbaycan türkcəsinin) dövlət dili elan olunması (27 iyun 1918-ci il), hərbi nazirliyin təsis edilməsi (1 noyabr 1918-ci il) haqqında qərarların qəbulu ilə tarixi yaddaşımıza daxil olmuşdur.

Xalq Cümhuriyyətinin hökuməti və parlamenti mövcud olduqları müddətdə fəaliyyətlərini daha çox ölkənin ərazi bütövlüyünü təmin etməyə, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirməyə, dünya dövlətləri tərəfindən tanınmasına nail olmağa, sosial-iqtisadi və maliyyə problemlərinin həllinə, vətəndaşların hüquqlarını qorumağa, xarici ölkələrlə siyasi, iqtisadi və ticarət əlaqələri yaratmağa yönəltmişdi. Həmin dövrdə vətəndaşlıq haqqında, ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, Bakı Dövlət Universitetinin açılması haqqında, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi haqqında, məhkəmə qanunvericiliyi haqqında və sair qanunlar qəbul edilmişdi.

Zəngin dövlətçilik ənənələrinə malik olan müstəqil Azərbaycan dövlətinin atributlarının yaradılması hökumətin diqqət mərkəzində olmuşdur. Müvəqqəti hökumətin 21 iyun 1918-ci il tarixli qərarı ilə üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı kimi qəbul edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası 1918-ci il noyabrın 9-da hökumətin başçısı Fətəli xan Xoyskinin məruzəsi əsasında Azərbaycanın yeni üçrəngli - mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul etmişdir. Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan dövlət bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada (indiki Azərbaycan Dövlət Neft Şirkətinin yerləşdiyi, o zamankı neft milyonçusu, məşhur müğənni Seyid Mirbabayevin mülkündə) qəbul edilmiş və qaldırılmışdır.

Üçrəngli dövlət bayrağımız 70 il sonra 1990-cı il noyabrın 17-də qədim Azərbaycan diyarı Naxçıvanda XX əsrin böyük siyasətçisi və dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilərək yüksəklərə qaldırıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti ilə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının dövlət bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi. Bu qanunla üçrəngli milli bayrağımız Azərbaycan Respublikasının dövlət bayrağı kimi təsdiq edildi və bu müqəddəs istiqlal rəmzimiz bütün Azərbaycan üzərində dalğalanmağa başladı. Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2009-cu il tarixli sərəncamı ilə hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Azərbaycan Respublikasının dövlət gerbi istər simvollarının zənginliyi, istərsə də Azərbaycan milli dövlətçiliyinin, xalqımızın tarixi-mədəni, milli-mənəvi görüşlərini hərtərəfli, dolğun əks etdirməsi ilə seçilir. Müstəqil Azərbaycan Respublikasının dövlət gerbinin layihəsi 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlansa da, həmin illərdə onun qanunvericilik səviyyəsində qəbul edilməsi mümkün olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası 1920-ci il yanvarın 30-da "Azərbaycan Respublikasının gerbi və möhürünün, milli himninin və hərbi ordenlərinin layihələrinin hazırlanması haqqında" yenidən qərar qəbul etmişdir. Qərarın birinci bəndində hərbi ordenlərin yaradılması üçün müsabiqə elan edilməsi Hərbi Nazirliyə, ikinci bəndində isə milli himnin, dövlət gerbi və möhürünün layihələrinin hazırlanması ilə bağlı müsabiqə keçirilməsi Xalq Maarif Nazirliyinə tapşırılmışdı. Birinci qərara əsasən, 1919-cu il martın 23-də "Azərbaycan" qəzetində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət gerbi və möhürü layihələrinin hazırlanması üçün müsabiqə elan edilmişdi. Lakin təəssüf ki, 27 aprel 1920-ci il bolşevik istilası və milli dövlətimizin süqut etməsi bu ümummilli və dövlət əhəmiyyətli məsələləri həll etməyə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə imkan vermədi. XX əsrin sonunda Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etmək ərəfəsində - 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə dövlət gerbinin hazırlanması üçün müsabiqə elan olunmuşdur. 1991-1992-ci illər ərzində müsabiqəyə dövlət gerbinin onlarla layihəsi təqdim olunmuş, müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər səslənmişdir. Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının dövlət gerbi kimi təsdiq etmişdir.

Özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən müasir Azərbaycan Respublikasının parlamenti 1992-ci il mayın 27-də "Azərbaycan Respublikasının dövlət himni haqqında" Qanun qəbul etmişdir. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın dövlət himni kimi təsdiq edilmişdir. Beləliklə, Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri bərpa olunmuşdur.

1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun köməyi ilə Bakı daşnak-bolşevik işğalından azad edildi. İki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. F.X.Xoyskinin müraciətinə əsasən, noyabrın 16-da Milli Şura yenidən fəaliyyətə başladı. Milli Şuranın noyabrın 19-da M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilən iclasında qərara alındı ki, Azərbaycan parlamentində ölkədə yaşayan bütün qeyri-millətlərin nümayəndələri təmsil olunmalıdırlar. Parlamentin 120 nəfərdən ibarət olması qərara alındı. Həmin dövrdə Milli Şuranın Azərbaycanın mübahisəsiz hesab etdiyi ərazilərdə - Bakı və Gəncə quberniyalarında, Zaqatala dairəsində, İrəvan və Tiflis quberniyalarının Azərbaycana bitişik və soydaşlarımızın kompakt yaşadıqları ərazilərdə 2 milyon 750 min əhali yaşayırdı. Onlardan 1,9 milyon nəfəri müsəlman, yarım milyonu erməni, 230 min nəfəri ruslar idilər. Əhalinin hər 24 min nəfərinə bir nümayəndə olmaqla, parlamentdə müsəlmanları 80, erməniləri 21, rusları 10, almanları bir, yəhudiləri bir deputat təmsil etməli idi. Kvotaya uyğun gəlməsə də, gürcülərin və polyakların da hərəsinin bir nümayəndə ilə parlamentdə təmsil olunmaları qərara alınmışdı.

Yeni seçiləcək 36 müsəlman deputat üçün yerlər aşağıdakı qaydada ayrılmışdı: Bakıdan 5, Cavad, Göyçay, Lənkəran, Şamaxı, Ərəş, Şuşa, Zəngəzur, Nuxa və Zaqataladan 2, Quba, Gəncə və keçmiş İrəvan quberniyasının azərbaycanlıların əksəriyyət təşkil etdikləri (Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzaları) hissəsindən 3, Cavanşir, Qazax, Cəbrayıl qəzalarının və Borçalının hərəsindən bir deputat. Əsasnaməyə görə, parlamentdə təmsil olunmaq üçün ayrılan 21 erməni yeri aşağıdakı qaydada bölünmüşdü: Gəncə və Şuşadan hər birindən 8 nəfər, Bakı Erməni Milli Şurasından 5 nəfər. Rus Milli Şurası üçün 10, alman, yəhudi, polyak və gürcü milli azlıqları üçün 1, Bakı Həmkarlar İttifaqları üçün 3, Neft Sənayeçiləri İttifaqı üçün 2 yer ayrılmışdı. Parlamentin təsdiq etdiyi Azərbaycan hökumətinin tərkibində ermənilərin təmsilçisi kimi, portfelsiz nazir yeri belə ayrılmışdı. Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırmışdı.

Müqayisə üçün qeyd edək ki, 1918-ci ildə imzalanan Batum müqaviləsindən sonra Ermənistanın ərazisi təqribən 10 min kvadratkilometr, əhalisi isə 320 min nəfər idi ki, bunun da 80 min nəfərdən çoxunu Azərbaycan türkləri təşkil edirdi (Naxçıvan qəzasının azərbaycanlı əhalisinin sayı bura daxil deyildi). Həmin il avqustun 1-də açılan Ermənistan parlamentinin ilk tərkibi 46 deputatdan ibarət idi. Artıq "milli azlıq" hesab edilən azərbaycanlı əhalini parlamentdə 6 deputat təmsil edirdi. Halbuki kvotaya görə, azərbaycanlı deputatların sayı 11 nəfərdən çox olmalı idi. 1919-cu il iyunun 21-23-də Ermənistan parlamentinə yeni seçkilər keçirilmişdi. Parlamentin tərkibinin 80 deputatdan ibarət olması qərara alınmışdı. Bu dəfə Ermənistan parlamentində azərbaycanlı əhalini əvvəlki deputat korpusundan yalnız iki nəfər - Mir Bağır Mirbabayev və Əsəd bəy Ağababəyov təmsil etmək hüququ qazanmışdı. Göründüyü kimi, Azərbaycan parlamentində bütün milli azlıqların, o cümlədən də ermənilərin təmsilçiliyi məsələsi demokratik prinsiplərə uğun həll edildiyi halda, Ermənistan parlamentində azərbaycanlı əhalinin və digər milli azlıqların təmsilçiliyi kobud surətdə məhdudlaşdırılmışdı.

Azərbaycan parlamentinin çağırılması ilə bağlı Milli Şura 1918-ci il noyabrın 24-də bütün Azərbaycan əhalisinə müraciət qəbul etmişdi. Dekabrın 7-də saat 13-də Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbinin binasında (hazırkı Əlyazmalar İnstitutunun binası) Azərbaycan parlamentinin təntənəli açılışı oldu. Binanın ətrafı həmin gün bayramsayağı bəzədilmişdi. Bu parlament bütün müsəlman Şərqində demokratik prinsiplər əsasında formalaşdırılmış ilk parlament idi.

Parlamentin ilk iclasını Milli Şuranın sədri M.Ə.Rəsulzadə açaraq təbrik nitqi söyləmiş və onun rəhbərliyini seçməyi təklif etmişdi. Şəfi bəy Rüstəmbəylinin təklifi ilə o dövrdə bütün Rusiya müsəlmanlarının lideri hesab olunan siyasət nəhəngi, bitərəf Əlimərdan bəy Topçubaşov parlamentin sədri, "Müsavat" Partiyasının üzvü Həsən bəy Ağayev isə sədrin birinci müavini seçildilər. Həmin vaxt Ə.M.Topçubaşov Azərbaycan nümayəndə heyətinin başçısı kimi İstanbulda idi və sonradan Paris Sülh Konfransında iştirak etmək üçün Fransaya getməyə hazırlaşırdı. Parlamentin süqutunadək Ə.M.Topçubaşov Azərbaycana qayıda bilməsə də, qiyabi olaraq axıradək parlamentin sədri vəzifəsini daşımışdı.

Milli bayraqlarla və xalılarla bəzədilmiş iclas zalında müsavatçılarla azlıqda qalan millətlərin nümayəndələri orta cərgədə, hümmətçi menşeviklər və sosialistlər solda, bitərəflər və ittihadçılar isə sağda əyləşmişdilər. Diplomatik nümayəndələr lojasında general Tomsonun nümayəndəsi polkovnik F.Kokkerel, İranın konsulu Saed-ol Vezarya Marağei, Dağlı Respublikası hökumətinin sədri Tapa Çermoyev (Əbdül Məcid) və Azərbaycandakı diplomatik nümayəndəsi Əli xan Qantəmirov, Gürcüstanın diplomatik nümayəndəsi Nikolay Karsevadze, Araz-Türk Respublikasının nümayəndəsi Paşa Əliyev və digər qonaqlar əyləşmişdilər.

Parlamentdə o dövrdə Azərbaycanın siyasi palitrasını əks etdirən bütün partiyalar təmsil olunmuşdu. 11 komissiya fəaliyyət göstərirdi. "Müsavat" və bitərəflər fraksiyası ən böyük fraksiya olaraq parlamentdə 38 deputatla təmsil olunmuşdu. Sollar - hümmətçi menşeviklər və sosialistlər bloku 13 deputatla, "İttihadi-İslam" Partiyası 13, "Əhrar" fraksiyası 6, müstəqillər 3 yerlə parlamentdə yerlərini tutmuşdular.

Parlamentin ilk iclasında ermənilər, ruslar və həmkarlar ittifaqının nümayəndələri iştirak etmədilər. Lakin sonradan Azərbaycanda yaşayan rus-slavyan əhalisinin təzyiqi ilə Rus Milli Şurası parlamenti boykot etmək haqqında qərarını ləğv edir və ruslar parlament iclaslarına qatılırlar. Erməni deputatlardan isə 11 nəfəri iki fraksiyada qanunverici orqanın fəaliyyətində iştirak edir.

Ümumiyyətlə, Azərbaycan parlamentində 11 fraksiya və qrup fəaliyyət göstərirdi.

Tədqiqatçılar Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tariximizi iki dövrə ayırırlar. Birinci dövr - Milli Şura dövrü, yəni, 1918-ci il mayın 28-dən noyabrın 19-dək olan dövrü, ikinci dövr isə 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək olan dövrü əhatə edir. Birinci dövr 6, ikinci dövr 17 ay davam etmişdir. Birinci dövrdə Milli Şuranın 9 iclası keçirilmişdi. Onlardan 7-si Tiflisdə və Gəncədə, 2-si isə Bakıda keçirilmişdi.

Xalq Cümhuriyyəti parlamentinin 145 iclası keçirilmişdir. Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmış və onlardan 230-u müzakirə olunaraq qəbul edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu dövrdə 5 dəfə hökumət kabinəsi qurulmuşdur. Bunun 2-si parlamentçilik tariximizin birinci dövrünə, 3-ü isə ikinci dövrünə təsadüf edir. Beş kabinədən üçünə Fətəli xan Xoyski, ikisinə isə Nəsib bəy Yusifbəyov rəhbərlik etmişdir. Sonuncu üç kabinədə hökumətin tərkibi beynəlmiləl olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün əsas problemləri ölkə daxilində erməni separatizminin güclənməsi, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiası və qaçqınlar problemi olmuşdur. XX əsrin sonunda müstəqil Azərbaycan Respublikasının yenə də həmin problemlərlə üzləşməsi onu göstərir ki, həmin problemlər eyni mənbələrdən qaynaqlanır və Ermənistanın arxasında duran qüvvələr onu körükləyir.

Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz ərazisi 97.297,67 kvadratkilometr (Bakı quberniyasında 39.075,15 kvadratkilometr, Gəncə quberniyasında 44.371,29 kvadratkilometr, Zaqatala quberniyasında 3.992,54 kvadratkilometr, İrəvan quberniyasında 9.858,69 kvadratkilometr) təşkil etmişdir. Azərbaycanın Ermənistan və Gürcüstan arasında mübahisəli ərazisi 16.598,30 kvadratkilometr (İrəvan quberniyasında 7.913,17 kvadratkilometr, Tiflis quberniyasında 8.685,30 kvadratkilometr) olmuşdur. AXC dövründə mübahisəli ərazilərlə birlikdə ölkə ərazisi 113.895,97 kvadratkilometr olmuşdur.

Yeni yaranmış dövlətlər arasında sərhədlərin müəyyən edilməsi üçün aparılan danışıqlarda Azərbaycan tərəfi "millətlərin öz müqəddəratını təyinetmə prinsipi"ni əsas götürürdüsə, Ermənistan tərəfi "tarixi prinsiplərə" əsaslanır, guya qədimdə həmin mübahisəli ərazilərin "Böyük Ermənistan" ərazisinə daxil olduğunu iddia edirdi. Üstəlik, Azərbaycan Milli Şurasının 29 may tarixli iclasının qərarı ilə İrəvan şəhərinin Ermənistana paytaxt kimi güzəştə gedilməsi erməniləri yeni-yeni Azərbaycan ərazilərini ələ keçirməyə şirnikləndirmişdi.1919-cu il mayın 28-də Ermənistan parlamenti "Birləşmiş Ermənistan haqqında akt" qəbul etmiş, Azərbaycanın Naxçıvan, Qarabağ və Zəngəzur ərazilərini "Birləşmiş Ermənistan" ərazisinə daxil etdiyini bəyan etmişdi.

Xalq Cümhuriyyəti hökumətinin başlıca məqsədi dövlət müstəqilliyinin tanınmasına nail olmaqdan ibarət idi. Parisdəki Azərbaycan nümayəndə heyəti bu məqsədlə çoxtərəfli görüşlər keçirmişdi. Nəhayət, 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransında Azərbaycanın müstəqilliyi de-fakto tanındı. Bu əlamətdar hadisə ilə bağlı yanvarın 14-də bütün Azərbaycan ərazisində bayram şənlikləri və Azərbaycan parlamentinin xüsusi iclası keçirilmişdi.

9 mart 1920-ci ildə Azərbaycan parlamentinin fövqəladə iclasında Qars vilayətində və İrəvan quberniyasında baş verən qanlı hadisələr, Ermənistan Respublikasının təcavüzkar əməlləri müzakirə edilmişdi. Müzakirənin sonunda qəbul edilən qətnamədə Azərbaycan parlamentinin rəyasət heyətinə səlahiyyət verilmişdi ki, Ermənistan hökumətinin qanlı əməllərinə son verməsinə təsir göstərmək üçün mədəni ölkələrin parlamentlərinə müraciət etsin və Azərbaycan hökumətinə tapşırılmışdı ki, erməni təcavüzündən zərər çəkənlərin və qaçqınların vəziyyətinin yüngülləşdirilməsi üçün lazım olan tədbirləri görsün.

8 aprel 1920-ci ildə keçirilən parlament iclasında Azərbaycan Cümhuriyyətinin Qərbi Avropa dövlətləri və Amerikada diplomatik nümayəndəliklərinin təsis edilməsi və Paris Sülh Konfransındakı Azərbaycan nümayəndə heyətinin buraxılması haqqında qanun layihəsi müzakirə edilmişdi. Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklərin açılması haqqında qanun qəbul edilmişdi. Həmin dövrdə Bakıda 16 ölkənin diplomatik missiyaları fəaliyyət göstərirdi.

Azərbaycan parlamenti mövcud olduğu dövrdə İstiqlal bəyannaməsinə əməl etmişdir. Onun fəaliyyəti isə "Azərbaycan parlamentinin "nakazı" ("təlimatı") əsasında idarə olunmuşdur.

1920-ci ilin əvvəlində parlamentin rəyasət heyətində dəyişiklik baş vermişdir. Daxili nizamnaməyə əsasən, bir illik səlahiyyət müddəti başa çatdıqdan sonra Həsən bəy Ağayev istefa vermişdir. Onun yerinə Məmməd Yusif Cəfərov parlament sədrinin birinci müavini seçilmişdir. Xalq Cümhuriyyətinin süqutunadək parlamentə M.Y.Cəfərov sədrlik etmişdir.

Azərbaycanın daxili siyasi həyatında yaranan sabitlik uzun sürmədi. Ölkənin başının üstünü bolşevik təhlükəsi alsa da, Rusiya qoşunları Azərbaycanın şimal sərhədlərində cəmləşsə də parlament öz ahəngində işini davam etdirirdi. Xalq Cümhuriyyətinin süqutundan bir gün öncə - mayın 26-da parlamentin müzakirəsinə çıxarılan məsələlərin gündəliyi belə qənaətə gəlməyə əsas verir ki, bu parlament hələ uzun illər fəaliyyətini davam etdirməkdə qərarlıdır. Həmin gün parlamentin lojasında əyləşən Polşa nümayəndə heyətini deputatlar alqışlarla salamlamışdılar. Gündəlikdə duran məsələlər - xaricə çıxarılan xalçalara yeni gömrük haqqının tətbiq edilməsi, Nuxa şəhərini daşqınlardan qorumaq üçün Kiş çayı üzərində bənd çəkilməsi üçün vəsaitin ayrılması, orta təhsil məktəblərinin hazırlıq siniflərində dərs deyən müəllimlərin əmək haqqının artırılması kimi məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul olunmuşdu. Göründüyü kimi, AXC parlamenti şimaldan gələn təhlükəni o qədər də yaxından hiss etmirdi.

Lakin mart ayında Ermənistanın təhriki ilə Qarabağda başlanan erməni iğtişaşlarını yatırmaq üçün Azərbaycanın ordu hissələrinin Bakıdan Qarabağa göndərilməsi Qırmızı Orduya qarşı ciddi müqavimət göstərməyi mümkünsüz etmişdi. Parlament 1920-ci il aprelin 27-də keçirilən sonuncu iclasında Rusiyanın hərbi müdaxiləsi nəticəsində fakt qarşısında qalaraq hakimiyyətin bolşeviklərə təhvil verilməsi barədə uzun-uzadı müzakirələrdən sonra qərar çıxarmağa məcbur edildi. Hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında parlamentin qərarının 1-ci bəndində Azərbaycanın istiqlaliyyətinin sovet hökuməti tərəfindən tam mühafizə ediləcəyi, 5-ci bəndində isə yeni yaradılan müvəqqəti kommunist hökumətinin parlamentin və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verildiyi bəyan edilmişdi. Lakin tezliklə bu qərarın bəndlərinin heç birinə əməl edilmədi. Sovet-bolşevik rejiminin Xalq Cümhuriyyəti qurucularına qarşı repressiya aparatı tam gücü ilə işə salındı. Bütün ölkəni həbslər və repressiyalar dalğası bürüdü...

Şimali Azərbaycan yenidən Rusiyanın əlinə keçsə də, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz buraxdı. Cəmi 23 ay yaşamasına baxmayaraq AXC sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

Cümhuriyyətin xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində rolu misilsizdir. Sovet tarixşünaslığında AXC-nin fəaliyyəti qərəzli şəkildə saxtalaşdırılmışdır. Müasir Azərbaycan bu gün onun zəngin ənənələrindən bəhrələnir. Cümhuriyyətin irsinin tədqiqi və nəşr edilməsi istiqamətində mühüm işlər görülmüşdür. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi ərəfəsində imzaladığı 30 yanvar 1998-ci il tarixli sərəncama əsasən, Xalq Cümhuriyyəti irsinin mühüm sənədləri 7 cilddə çap olunmuşdur. AMEA Tarix İnstitutunun əməkdaşları Xalq Cümhuriyyəti dövrünə aid xarici dövlətlərin arxivlərində saxlanılan sənədlərin surətlərini gətirərək elmi-tədqiqat dövriyyəsinə cəlb etmişlər.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir.

Cümhuriyyətin irsi tariximizin həm şanlı, həm də ibrətamiz səhifələridir.

***Nazim MUSTAFA,***
***Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dövlət mükafatı laureatı***




Abadlıq və quruculuq işləri sayəsində Qazax rayonunun siması başdan-başa dəyişmişdir. Yeni salınmış yollar, park və xiyabanlar, mövcud binaların əsaslı təmiri, istifadəyə verilən təzə ictimai binalar sakinlərdə yurda olan məhəbbəti daha da artırmışdır.



# Qazaxda tikinti-quruculuq və abadlıq işləri geniş vüsət alıb





Başlanan abadlıq və quruculuq işləri bu gün də uğurla davam etdirilir. İndi rayona gələn hər kəs geniş vüsət alan tikinti işlərinin aparıldığının şahidi olar. Ölkə rəhbəri İlham Əliyevin diqqət və qayğısı, eləcə də ayırdığı vəsaitlər hesabına görülən işlərin sayı-hesabı yoxdur. Uzun illərdən bəri baxımsız vəziyyətə düşmüş çoxmənzilli binaların əsaslı şəkildə təmir olunması da rayon mərkəzinə xüsusi yaraşıq verir. Keçən il 78 binanın təmiri başa çatdırılmış, bu il 85 binanın əsaslı şəkildə təmirinə başlanılmışdır. Artıq 15 binada təmir işləri başa çatdırılmışdır. Nərimanov yaşayış massivində olan 11 çoxmənzilli binada və "Hərbi şəhərcik" adlanan massivdə olan 4 binada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılmış, binaların dam örtüyü, giriş hissələri və fasadları yenidən qurulmuşdur. Daha 5 binada - Heydər Əliyev prospektindəki 3, 4 və 5 mərtəbəli, Ə.Şıxlinski küçəsində, "Gillik" adlanan ərazidə olan 4 və 5 saylı beşmərtəbəli yaşayış binalarında əsaslı təmir işləri davam etdirilir.



Qeyd edək ki, rayon icra hakimiyyətinin rəhbərliyi təmir gedən obyektlərdə olur, görülən işlərlə maraqlanır, lazım gəldikdə yaranan çətinliklərlə bağlı aidiyyəti təşkilatlara göstərişlər verir.

Rayonun "Gillik" adlanan ərazisində olan beşmərtəbəli binalarda da işlər başa çatmaq üzrədir. 4 saylı binada elektrik və telefon xətləri qaydaya salındıqdan sonra rəngləmə işlərinə başlanılmışdır. 5 saylı binada təmir işləri sürətlə davam etdirilir. Bu günlərdə binanın dam örtüyünün dəyişdirilməsinə başlanılıb.

"Göy bina" adlanan çoxmənzilli yaşayış binasında məskunlaşan məcburi köçkünlər üçün də yüksək səviyyəli məişət şəraiti yaradılmışdır. Binanın əsaslı təmiri başa çatdırılmış, məcburi köçkünlərin arzu və istəkləri təmin edilmişdir. Burada məskunlaşan və işğal altında olan Bağanıs Ayrım kəndinin sakinləri - Xətayi İmanquliyeva, Saleh Xasayev, Qızıl Hacılı kənd sakinlərindən Ülkər Adıgözəlova, Qəndaf Hüseynova və başqaları görülən işdən razı qaldıqlarını bildirdilər.

Genişmiqyaslı abadlıq və quruculuq işlərinin geniş vüsət aldığı Qazax rayonunda digər sahələrlə yanaşı, körpələrin də yaxşı şəraitdə təlim-tərbiyə almalarına diqqətlə yanaşılır. Bu baxımdan uşaq bağçalarının əsaslı şəkildə təmir olunmasına və yenidən qurulmasına böyük önəm verilir. Ölkə rəhbərinin regionlarda uşaq-tərbiyə müəssisələrinin tikintisi ilə bağlı imzaladığı sərəncama uyğun olaraq son 2 il ərzində rayonda genişmiqyaslı işlər həyata keçirilmişdir. Qısa vaxt ərzində Aşağı Əskipara kənd körpələr evi-uşaq bağçası, rayon mərkəzindəki 1, 2 və 3 saylı, Daş Salahlı kənd 2 və 3 saylı, Kosalar kənd 2 və 3 saylı, Xanlıqlar kənd körpələr evi-uşaq bağçaları, Cəfərli, Canal, Quşçu Ayrım və Bala Cəfərli kənd uşaq bağçaları əsaslı şəkildə yenidən qurulmuşdur. Rayonda yeni uşaq bağçalarının tikilməsi və yaxud əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Özü də bu bağçaların çoxu kəndlərdə reallaşdırılır. Tələbata cavab verməyən bağça binaları üçün yeni korpusların tikilməsi və əsaslı şəkildə təmir edilməsi, onların müasir inventarlarla təminatı qaydaya salınır. Rayon mərkəzində fəaliyyət göstərən 6 saylı körpələr evi-uşaq bağçasının əsaslı təmiri üçün də hazırlıq işlərinə başlanılmışdır.

Mərkəzi Rayon Xəstəxanasının yeni binasının tikintisi də başa çatmaqdadır. Baş iş icraçısı Cəlal Əfəndiyev dedi ki, 5 korpusdan ibarət xəstəxana binası ən müasir standartlara uyğun inşa edilir. İşin 90 faizi başa çatdırılıb. İndi inşaat briqadası xəstəxana binasının çöl hissəsində çalışır. Əsasən binanın ətrafına hasar çəkilir, giriş hissəsinə aqlay vurulur, ərazidə işıqlandırma sistemi quraşdırılır. Burada hər biri 400 kubmetr tutumu olan su hovuzu, qazanxana və nasos stansiyası inşa edilib. Transformator stansiyası üçün bina tikilib. Nəzarət-buraxılış məntəqəsi hazırdır. Ərazidə yaşıllıq işləri də aparılır. Bir sözlə, 2,6 hektar sahədə inşa edilən, 10 korpusdan ibarət olan və 145 çarpayılıq mərkəzi rayon xəstəxanasının istifadəyə verilməsinə saylı günlər qalıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Zaqatalanın suvarma suyu ilə təminatı daha da yaxşılaşacaq

Bu gün kəndlinin üzünün gülən vaxtıdır. O, əziyyətlə əkib-becərdiyi məhsulu toplayır. Amma o da bəllidir ki, kəndlinin bol məhsul götürməsinin başlıca amillərindən biri su ilə bağlıdır. Zaqatala rayonunda bu istiqamət üzrə çox işlər görülüb.



Rayonda əkin sahələri əsasən Muxax, Tala və Katex çayları, Qanıx çayı vadisi boyunca isə qara sularla suvarılır. Rayondakı 15 min 562 hektar suvarılan torpaqların su təminatının yaxşılaşdırılması, suvarma suyu ilə fasiləsiz təmin edilməsi, su ehtiyatlarından qənaətlə və səmərəli istifadə edilməsi üçün 550 kilometrə yaxın uzunluğunda təsərrüfatdaxili su kanallarından və onların üzərindəki 37 hidrotexniki qurğulardan istifadə edilir.

Mövcud suvarma kanalları əsasən torpaq məcralıdır. Onlardan 18,2 kilometr beton üzlüklü kanallardır. Alazan nasos stansiyası ərazisində isə 124,7 kilometr uzunluğunda qapalı boru kəmərləridir. Qeyd olunanlarla yanaşı, rayonda 180 kilometrə yaxın uzunluğunda kollektor-drenaj şəbəkəsi mövcuddur.

Muxax çay sistemində suvarma şəbəkəsinin yenidən qurulması məqsədilə "Azərbaycan suvarma-drenaj infrastrukturunun bərpası və yenidən qurulması layihəsi" çərçivəsində 8444 metr uzunluğunda kanallara beton üzlük çəkilib. Bundan başqa, 37 min 120 metr torpaq kanallar qazılıb, kanallar üzərində 223 hidrotexniki qurğu tikilib.

Cari ildə Rayon Suvarma Sistemləri İdarəsi tərəfindən 206 min kubmetr həcmində suvarma kanalları lildən təmizlənib, çaylarda əkin sahələrinin və yaşayış məntəqələrinin sel təhlükəsindən mühafizə edilməsi üçün bəndlər təmir edilib, 120 paqonometr uzunluğunda suvarma kanalları beton üzlüklə örtülüb, 8 hidrotexniki qurğu təmir olunub.

Muxax çayın sağ və sol sahilində, Çobankol kəndi ərazisində 1390 kubmetr təmir işi görülüb. Muxax çayın sol sahilində Suvagil kəndi ərazisində 312 qabion bənd qurulub. Rayonun bütün çaylarında sel sularından mühafizə məqsədilə 676 min kubmetr həcmində çay yataqları təmizlənib. Göyəm, Süvagil, Yolayrıc və Dardoqqaz kəndlərinin mühafizə edilməsi üçün bənd tikintisi ilə əlaqədar müvafiq orqanlar qarşısında məsələ qaldırılıb.



Zaqatala Melioservis İdarəsi tərəfindən də cari ildə çay yataqlarının və suvarma kanallarının təmizlənməsi və sel sularından mühafizə üçün işlər görülüb.

Torpaqların münbitliyinin və suvarılan torpaq sahələrinin artırılması istiqamətində işlər davam etdirilir. 6 kəndin 2101 hektar əkin sahəsinin suvarılmasına xidmət edən Qanıx çayı üzərindəki iki pilləli Alazan nasos stansiyası bərpa edilir. Cari ilin mart-aprel aylarından Mosul, Kəpənəkçi, Yengiyan, Qandax, Faldarlı və Muğanlı kəndlərinin suvarma şəbəkəsi bərpa edilərək sahələrə qrafik əsasında su verilir. Su pulunun yığılması da normaldır və nasos stansiyası sutka ərzində 8-10 saat işləyir.

Prezidentin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 5 iyun 2017-ci il tarixli sərəncamının icrası çərçivəsində Əliabad qəsəbəsində, Muxax, Lahıc, Yengiyan, Yuxarı Tala və Dağlıl kəndlərində subartezian quyularının qazılması başa çatdırılıb.

Dövlət başçısının "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 12 mart 2018-ci il tarixli sərəncamının icrası çərçivəsində Zaqatalada subartezian quyusunun qazılması nəzərdə tutulub. Zaqatala şəhəri ərazisində, Bəhmətli, Kürdəmir, Muğanlı, Faldarlı, Qandax, Kəpənəkçi, Car kəndlərində və Əliabad qəsəbəsində subartezian quyularının qazılması başa çatdırılıb. Hazırda Dağlı kəndində iş gedir. Bu il 22 subartezian quyusu da təmir-bərpa edilərək xəttə qoşulma vəziyyətinə gətirilib.

Rayonda mövcud olan suayırıcılardan verilən suyun miqdarı 35 min 254 kubmetrdir. Həmin su taxıl, dən qarğıdalı, tütün, tərəvəz, yem bitkiləri, bağ və həyətyanı ərazilərə verilərək 15 min 512 hektar torpaq sahələrinin suvarılmasını təmin edib.

Suvarmanın daha mütəşəkkil keçirilməsi məqsədilə Əliabad qəsəbəsində, Aşağı Tala və Qımır kəndlərində sudan istifadə edənlər birlikləri (SİB) yaradılıb. SİB-lər istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını, suvarma suyunun paylanmasını, su təchizatı müəssisəsindən suyun satın alınmasını, istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin bərpasını təmin edir.

Avqustun ortalarında aramsız yağan yağışlar nəticəsində rayon ərazisindən axan Katex, Tala, Muxax, Bəkməz və Miciqar çaylarında suyun səviyyəsi qalxıb və nəticədə torpaq bəndləri yuyub. Sel-suların vurduğu ziyanı aradan qaldırmaq məqsədilə rayonda operativ qərargah yaradılıb. Rayon Suvarma Sistemləri İdarəsinin mexanizmləri və qonşu rayonlardan gətirilmiş müxtəlif markalı texnikalar vasitəsilə Bəkməz, Tala və Silban çaylarında məcra təmizləmə işləri aparılır, Suvagil, Çobankol kəndlərində, Əliabad qəsəbəsində və Dəmir yol xətti ərazisində sel sularının yaratdığı fəsadlar aradan qaldırılır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Bu il Gədəbəydə kartof bol olacaq

Əlverişli iqlim şəraitinə görə Gədəbəy kartofçuluğun inkişaf etdirilməsi üçün geniş imkanlara malikdir. Odur ki, uzun illərdir bu rayonda kartofçuluq sürətlə inkişaf etdirilir və bu gün əhalinin əsas dolanışığı heyvandarlıqla yanaşı kartofçuluqla da bağlıdır. Rayonda elə bir ailə yoxdur ki, ona verilmiş pay torpağında kartof yetişdirməsin.





Bu il rayonda 11 min 810 hektarda kartof əkilib. Mütəxəssislərin fikrincə, sahələrdə bol məhsul yetişdirilib. Yığıma başlayan təsərrüfat sahibləri deyirlər ki, hələlik hər hektardan 110 sentner məhsul əldə edilir. Bu da keçən ilki göstəricidən xeyli çoxdur.

Gədəbəy rayon aqrar inkişaf mərkəzinin direktoru Asəf Nağıyev deyir ki, keçən ilə nisbətən bu il məhsul boldur. Toxumun vaxtında əkilməsi, havaların əlverişli keçməsi məhsuldarlığa müsbət təsir göstərmiş, sahələrdə bol məhsul yetişmişdir. Fermerlər yığıma başlamışlar. İlkin göstəricilər deməyə əsas verir ki, bu il məhsul bol olacaq. Fermerlərin bəziləri məhsulunu yerində satsa da, çoxu kartofu anbarlarda saxlayaraq, qış aylarında daha sərfəli qiymətə satmağı düşünür. Onu da qeyd edək ki, bu il rayonda tutumu 10 min tondan çox olan kartof saxlama anbarı istifadəyə verilib.

Rayonda gələn ilin məhsulu üçün diqqət yetirilən sahələrdən biri də keyfiyyətli toxum tədarük edilməsidir. Hazırda bu istiqamətdə də işlər görülür. Məsələn, fermer Əli İsmayılov bu il İvanovka kəndi ərazisində 11 hektar sahədə toxumluq kartof yetişdirib. Təsərrüfat sahibi 350 ton toxum tədarük etmək niyyətindədir. Ancaq bu rəqəm fermeri qane etmir. O, rayonda kartof toxumçuluğunu inkişaf etdirmək məqsədilə yaxın bir neçə ildə sahələri 50 hektara çatdırmağı qərara alıb. Məqsəd bölgənin kartof toxumuna olan tələbatını yerli istehsal hesabına ödəməkdir.

Nərimankənd kəndinin sakini Elduz Məhərrəmov hər il 3 hektar pay torpağında kartof yetişdirir. Qazancı da pis olmur. Keçən il hər hektardan 120 sentner kartof götürən fermer məhsulun bir hissəsini toxum kimi, bir hissəsini ərzaq kimi sataraq xeyli gəlir əldə etmişdir. Söyüdlü kəndinin sakini Fərman Abdullayev isə 5 hektarda kartof yetişdirir. Keçən il sahələrdən 55 ton məhsul götürən Fərman bu il məhsuldarlığın daha yüksək olacağını bildirərək dedi ki, əkindən tutmuş, yığımadək heç bir problemimiz olmadı.

Fermer Ramiz Əliyev hər il Saratovka kəndində 6 hektar kartof əkir. Rayonda kartofçuluğun inkişaf etdirilməsində onun böyük əməyi var. Rəhbərlik etdiyi təsərrüfatı ildən-ilə genişləndirərək bol məhsul əldə edir. Kartofun əkilməsindən yığımınadək bütün işlər texnika vasitəsilə həyata keçirilir. İstehsal olunmuş məhsulun saxlanması üçün anbar da inşa etdirib. Texnika sarıdan heç bir çətinliyi yoxdur.

Söhbət zamanı fermerlər bir sıra problemlərdən də danışdılar. Dedilər ki, rayonda kartofsəpən texnika çox azdır. Rayon fermerlərini texnika ilə Şəmkirdəki "Aqrolizinq" ASC təmin etməlidir. Dəfələrlə müraciət etsələr də nəticəsi olmayıb. Bundan başqa gübrə qıtlığı var. Belarusdan yüksək məhsuldar kartof sortlarının gətirilməsində dövlətin dəstəyinə də ehtiyac var.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

Ali təhsilli mütəxəssisəm. Ermənistan silahlı qüvvələri doğma yurdumuz olan Laçını işğal edəndən sonra məcburi köçkün kimi Tərtər rayonunun İsmayılbəyli kəndində məskunlaşmışıq. Əhatə olunduğumuz dövlət qayğısı, Tərtər camaatının isti və doğma münasibəti bizi üzülməyə qoymadı. Bu qayğıdan, bizə doğmaları kimi qucaq açıb arxa duran insanların səmimiyyətindən güc alıb ayaq üstə dayana bildik. Heç kəsə yük olmaq, mehriban və qayğıkeş insanlara problem yaşatmamaq üçün ən etibarlı dolanışıq mənbəyi olan torpağa bağlandıq. Ailəmin çörəyini, ruzisini qazanmaq üçün öz halal zəhmətimə güvəndim.



# Doğru yol

İnsanlığa yaraşmayan vərdiş kimi hər zaman nifrət etdiyim ələbaxımlıqdan uzaq olmaq üçün var gücümlə çalışdım. Halallıq sevən torpaq çəkdiyim zəhmətin, axıtdığım alın tərinin əvəzini birə-beş qaytarır, məni özünə daha möhkəm tellərlə bağlayırdı. Əmək fəaliyyətimi genişləndirmək üçün etdiyim müraciətlərə verilən müsbət cavabları, yaradılan əlverişli şəraiti, göstərilən köməyi Respublika Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə məsuliyyətlə yanaşan dövlət qurumlarının bizlərə qayğısı kimi minnətdarlıqla qeyd etmək istəyirəm.

Zəhmətlə yoğrulmuş bolluq, firavanlıq həvəsli illər bir-birini sürətlə əvəz etdikcə mən Tərtər rayonunun qabaqcıl fermerləri arasında yer alır, yavaş-yavaş tanınırdım. İndi rayonda kənd təsərrüfatı məsələlərinin müzakirəsinə həsr olunmuş elə bir yığıncaq olmur ki, ora dəvət olunmayım. Dövlət başçısının sədrliyi ilə ayrı-ayrı rayonlarda keçirilən aqrar məsələlərlə bağlı müşavirələrdə də dəfələrlə iştirak etmişəm.

Bizim fermer təsərrüfatının istifadəsində 120 hektar torpaq sahəsi var. Fəaliyyətimizin əsas istiqaməti taxıl toxumçuluğudur. Bu il 102 hektar sahədə taxıl əkmişdik. Zəmilərin becərilməsində aqrotexniki tələblərə ciddi əməl etdik. Çəkdiyimiz zəhmət hədər getmədi. Hər hektardan 50 sentner məhsul götürməyə nail olduq. 500 ton yüksək keyfiyyətli taxıl istehsal etməklə ölkəmizin ərzaq təhlükəsizliyi proqramına sanballı töhfə verdik.





Taxılçılıqla yanaşı kənd təsərrüfatının digər sahələri ilə də məşğul olur, çalışırıq ki, istifadəmizdə olan torpaqların hər qarışından maksimum səmərəli şəkildə istifadə edək. Respublika Prezidenti İlham Əliyevin qeyri-neft sektorunu dirçəltmək, kənd təsərrüfatında ənənəvi sahələrin inkişafına nail olmaq, bu sahədə əvvəlki şöhrəti qaytarmaq barədə tapşırıq və tövsiyələri bir fermer təsərrüfatı olaraq bizim fəaliyyətimizə də yeni istiqamət vermişdir. İndi baramaçılığa xüsusi diqqət yetiririk. Keçən il 120 kiloqram barama istehsal etdik. Çəkdiyimiz zəhmətin qarşılığında əldə etdiyimiz böyük qazanc bu gəlirli sahəyə marağımızı artırıb. Başqa elə bir təsərrüfat sahəsi yoxdur ki, cəmi 35-40 gün ərzində bu qədər qazanc əldə edə biləsən. Bu gəlirli sahəyə olan maraq nəticə etibarı ilə məhsul istehsalını artırmağın əsas şərtinə çevrildi. Bu il 385 kiloqram yüksək keyfiyyətli barama istehsal etdik. Qazancımız isə 3.500 manat oldu.

Baramaçılığı inkişaf etdirmək üçün əsas şərt etibarlı yem bazasıdır. Biz bu cəhəti əsas götürərək zəruri yem bazası yaratmağa çalışırıq. Çin Xalq Respublikasından gətirilmiş məhsuldar tut tinglərindən ibarət böyük bir bağ salmışıq. İndi buradakı tinglərin sayı 20,5 min ədədə çatır. Bu, cari ildə götürdüyümüz 10 qutu ipək qurdunun yemləndirilməsinə bolhabol bəs etdi. Üstəlik qonşu təsərrüfatlardan yarpaq üçün müraciət edənləri də əliboş qaytarmadıq. Gələn il baramaçılıqda hədəfimiz daha yüksək göstəricidir. Bunu real hesab edirik. Geniş və işıqlı kümxanalar, etibarlı yem bazası və kollektivin yenilməz iradəsi bu vədin şərəflə yerinə yetiriləcəyinə zəmanət verir.

Kollektivimizin üzvləri bu il 2 hektar noxud, 1 hektar kartof, 2 hektar lobya, 3 hektar sarımsaq sahələrindən də bol məhsul götürmüşlər. Atalarımızın belə bir müdrik sözü var. Deyir məhsulun məhsul olunca, bazarın bazar olsun. Mən artıq əkinçilikdə təcrübə qazanmış fermer kimi bir məsələyə münasibət bildirmək istəyirəm. Pambığın da, taxılın da, baramanın da, şəkər çuğundurunun da bazarı var. Bu sahələrdə nə qədər çox məhsul istehsal edə bilirsən et. Satış problemi olmayacaq. Necə deyərlər, alıcısı başının üstündədi. Bu il biz 3 hektar sarımsaq əkdik. Toxuma, əkinə, becərməyə xeyli xərcimiz çıxdı. Məhsulu yığıb bazara çıxarmaq məqamı gələndə sadə bir hesablama apardım. Araya-ərsəyə gələn sarımsağın maya dəyəri real bazar qiymətindən xeyli yuxarı oldu. Ona görə də məhsulu anbara vurub bazarda qiymətin qalxacağını gözləməyə qərar verdim. Düşündüm ki, heç olmasa çəkdiyim xərci çıxardım, ziyana düşməyim. Mənim durumuma düşən əkinçilərin sayı yüzlərlə, minlərlədir. Yevlax-Bərdə-Ağcabədi-Beyləqan yolu boyunca kisələrə yığılmış soğan tayalarına baxanda adamın ürəyi ağrıyır. Kəndli o məhsulu yetişdirib hasilə gətirmək üçün nə qədər zəhmət çəkib, nə qədər vəsait xərcləyib. İndi isə bir kisə soğanı (bir kisənin orta çəkisi 30-35 kiloqram) 2-3 manata satmaq məcburiyyətində qalıb. Bu, heç onun toxumuna verilən qiyməti ödəmir. Qazanc əldə etmək barədə düşünmək isə sadəlöhvlük olar. Bu məsələlərlə bağlı təklifim var. Məncə, yeganə çıxış yolu əkinçilikdə dövlət sifarişi qaydalarını geniş tətbiq etməkdir. Nəzərə alaq ki, bir il ziyana düşən kəndli bir neçə ilə öz maliyyə durumunu düzəldə bilmir. Ya əlindəki torpaq sahələrini icarəyə verməyə məcbur olur, ya da yenidən əlinə maya salmaq üçün banklardan kredit götürüb maliyyə öhdəliklərinin qarşısında aciz duruma düşür. Hesab edirəm ki, bütün bunlar barədə ətraflı düşünmək, konkret proqramlar qəbul etmək lazımdır.

Bu il pambıq əkdiyimiz 5 hektar sahədən bol məhsul gözləyirik. Apardığım hesablamaya əsasən deyə bilirəm ki, builki məhsuldarlıq azı 30 sentner olacaqdır. Arıçılıqla da məşğuluq. 35 arı ailəsi varımızdır. Pambıq tarlaları bal arıları üçün bol şirə mənbəyidir. Heyvandarlığa da böyük önəm veririk. Hazırda 60 baş cöngə kökəldilmədədir. Kənd təsərrüfatı maşın-mexanizmləri üçün kimsəyə ağız açmırıq. Özümüzdə hər cür texnika var. Dövlətin qayğısı, Prezident İlham Əliyevin bizə göstərdiyi doğru yol qazandığımız nailiyyətləri stimullaşdıran ən əsas şərtdir. Yaxşı işlədiyimiz kimi, yaxşı da qazanır, firavan yaşayırıq.

***Mirzə CÜMŞÜDOV,***
***Tərtər rayonu, İsmayılbəyli kəndində fermer***

*Təkrar*

## *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi*

*"Bakutel-2018 beynəlxalq sərgi və konfransında" iştirak etmək üçün Baku Ekspo Mərkəzində xüsusi dizayna uyğun olaraq stendin hazırlanması, müxtəlif reklam işlərinin görülməsi, stendin montajı, videowall monitorlarının quraşdırılması, işıqlandırma və səsləndirmə sistemlərinin quraşdırılması, sərgidən sonra stendin demontajı və daşınması xidmətlərinin satın alınması məqsədilə*

**açıq tender elan edir**

Tender 1 LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1010, Bakı şəhəri, Dilarə Əliyeva, 185 (əlaqələndirici şəxs: Asəf Məmmədov) telefon : 012 565 1465, faks: (012) 565-14-52, elektron poçt ünvanı: m.asef@rabita.az ) ünvanından ala bilərlər.

**İştirak haqqı 1000 manatdır.**

**H/h: AZ31AZPO91015461200420100045**
**VÖEN: 9900037691**
**Bank: "Azərpoçt" MMC PF-1**
**Kod: 691011**
**VÖEN: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Sosial Müdafiə Fonduna borcun olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 oktyabr 2018-ci il saat 17:00-a kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 30 oktyabr 2018-ci il saat 17:00-a kimi AZ1010, Bakı şəhəri, Dilarə Əliyeva, 185 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 31 oktyabr 2018-ci il saat 12:00-da AZ1010, Bakı şəhəri, Dilarə Əliyeva, 185 ünvanında, Məlumat Hesablama Mərkəzinin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## *"Bakı Metropoliteni" QSC "Tədris Mərkəzi"nin və "N.Nərimanov" elektrik deposunun ərazisində yerləşən Avtomotonəqliyyat Kolonuna aid yük maşınlarının təmir sexinin havalandırma sisteminin quraşdırılması işlərinin satın alınması üzrə*

**açıq tender elan edir**

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: Əlixan Osmanov, telefon: 490-00-91) ala bilərlər.

LOT-1. "Tədris Mərkəzi"nin və "N.Nərimanov" elektrik deposunun ərazisində yerləşən Avtomotonəqliyyat Kolonuna aid yük maşınlarının təmir sexinin havalandırma sisteminin quraşdırılması işlərinin satın alınması.

**İştirak haqqı - 300 manat**
**Hesabın adı: BAKI METROPOLİTENİ QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 oktyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 1 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 20 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## *Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Dövlət Radiotezliklər İdarəsi*

*"BakuTel-2018 beynəlxalq sərgi və konfransı"nda iştirak etmək üçün Baku Ekspo Mərkəzində xüsusi dizayna uyğun olaraq stendin hazırlanması, müxtəlif reklam islərinin görülməsi, stendin montajı, videoval monitorlarının quraşdırılması, işıqlandırma və səsləndirmə sistemlərinin quraşdırılması, sərgidən sonra stendin demontajı və daşınması xidmətinin satın alınması məqsədilə*

**açıq tender elan edir**

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştrak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Radiotezliklər İdarəsindən Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbədə yerləşən (əlaqələndirici şəxs: Qaryağdı Nağıyev, əlaqə telefonu: +99412-498-95-69 ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000 (bir min) manat.**
**H/H: AZ78AZPO91015461200420100072**
**Bankın adı: "Azərpoçt" MMC PF1**
**Bankın VÖEN-i: 9900037711**
**Bankın kodu: 691011**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin qiymətinin 1 faizi həcmində bank təminatı (zərfin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Sosial Müdafiə Fonduna borcun olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 oktyabr 2018-ci il saat 17:00-a kimi, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 30 oktyabr 2018-ci il saat 17:00-a kimi Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə, 6-cı mərtəbə, Dövlət Radiotezliklər İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 31 oktyabr 2018-ci il saat 11:00-da Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

# "AZƏRPOÇT" MMC

*"Bakutel-2018 beynəlxalq sərgi və konfransı"nda iştirak etmək üçün Baku Ekspo Mərkəzində xüsusi dizayna uyğun olaraq stendin hazırlanması, müxtəlif reklam işlərinin görülməsi, stendin montajı, videoval monitorlarının, işıqlandırma, səsləndirmə sistemlərinin quraşdırılması və avadanlıqların satın alınması məqsədilə*

**AÇIQ TENDER ELAN EDİR**

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT 1** - "Bakutel-2018 Beynəlxalq Sərgi və konfransı"nda iştirak etmək üçün Baku Ekspo Mərkəzində xüsusi dizayna uyğun olaraq stendin hazırlanması, müxtəlif reklam işlərinin görülməsi, stendin montajı, videoval monitorlarının, işıqlandırma və səsləndirmə sisteminin quraşdırılması, sərgidən sonra stendlərin demontajı və daşınması.

**LOT 2** - "Bakutel-2018 Beynəlxalq Sərgi və konfransı" üçün proqram təminatı ilə təmin olunmuş avtomatlaşdırılmış özünəxidmət avadanlıqlarının alınması və quraşdırılması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ü.Hacıbəyov, 72 (Əlaqələndirici şəxs: Oktay İsmayılov, telefon: +994 12 493-56-00 (240)) ünvanından ala bilərlər.

**İştirak haqqı**
**LOT 1 - 1000 manat**
**LOT 2 - 500 manat**

**Hesab: AZ82AZPO99995381000420000125**
**VÖEN: 9900037711**
**Bank: Azərpoçt MMC**
**Kod: 690001**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ 22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
10. *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 oktyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 25 oktyabr 2018-ci il saat 18:00-a qədər Bakı şəhəri, Ü.Hacıbəyov, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26 oktyabr 2018-ci il saat 14:00-da Bakı şəhəri, Ü.Hacıbəyov, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən 12 iyul 2018-ci il tarixdə keçirilmiş "Ölkədə dayanıqlı və etibarlı istilik təchizatı sisteminin yaradılması, istehlakçıların fasiləsiz və keyfiyyətli istilik enerjisi ilə təmin edilməsi, isitmə məqsədilə istifadə edilən təbii qaz və elektrik enerjisi sərfiyyatının azaldılması, enerji resurslarından səmərəli istifadə olunması, yanğın və ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə "Azəristiliktəchizat" ASC-nin texniki, təşkilati və maliyyə vəziyyəti ilə bağlı diaqnostik araşdırmanın aparılması və optimallaşdırılma tədbirlərinin həyata keçirilməsi üçün mərhələli tədbirlər planının hazırlanması işləri"nin satın alınmasına dair açıq tenderin nəticələri, iştirakçıların təkliflərinin qənaətbəxş hesab edilmədiyi səbəbindən ləğv edilmişdir.

***Tender komissiyası***

## Hindistanda yeni "Astra" raketi sınaqdan keçirildi

Hindistanda "hava-hava" sinfindən olan yeni raket sınaqdan keçirilmişdir. Bu barədə "Sinxua" agentliyi xəbər verir.

Buraxılış ölkənin şərqində yerləşən Odişa ştatı sahillərinin yaxınlığında həyata keçirilmişdir. Hindistan Müdafiə Nazirliyindən verilən məlumata görə, raket Su-30 qırıcı təyyarəsindən buraxılmış və havada manevr edən hədəfi böyük dəqiqliklə vurmuşdur. Bu sınaqlar yeni raketin hərbi hava qüvvələrinin sərəncamına verilməsinə hazırlıq çərçivəsində keçirilmişdir.

"Astra" ölkənin ilk "hava-hava" raketidir. 20 kilometrdən 80 kilometrədək məsafədəki hədəfləri vurmağa qadir olan raket inersial idarəetmə və tuşlama sistemi ilə təchiz olunmuşdur.

## Nigeriyada daşqınlarda 200 nəfərə yaxın adam həlak oldu

Nigeriyanın dörd ştatında baş vermiş daşqınlar nəticəsində ölənlərin sayı 199 nəfərə çatmışdır. 1000 nəfərdən çox adam yaralanmışdır. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Xatırladaq ki, sentyabrın 18-də Nigeriya hökuməti daşqınlarla əlaqədar dörd ştatda milli fəlakət elan etmişdir. Ölkənin digər ştatları da müşahidə altındadır.

Axtarış-xilasetmə əməliyyatlarının keçirilməsi üçün beş yardım mərkəzi açılmışdır. Hökumət ölkənin müxtəlif bölgələrində daşqından əziyyət çəkən adamlara tibbi yardım göstərilməsi üçün 3 milyard nayr (təxminən 8,2 milyon dollar) ayırmışdır.

## Ukrayna ABŞ-dan 250 milyon dollarlıq silah alacaq



ABŞ Konqresi 2019-cu ildə Ukraynaya 250 milyon dollar məbləğində hərbi yardımın ayrılmasına razılıq vermişdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Ukraynanın Vaşinqtondakı səfirliyinin məlumatında deyilir ki, Nümayəndələr Palatası bundan əvvəl Senatla "2019-cu il üçün Müdafiə Nazirliyinin ehtiyaclarına vəsait ayrılması haqqında" qanun layihəsini razılaşdırmışdır. Qanun Ukraynaya təhlükəsizlik sahəsində yardım kimi 250 milyon dolların ayrılmasını nəzərdə tutur.

ABŞ-ın ayırdığı pul silah alınmasına, əvvəllər göndərilmiş silahların və hərbi malların əvəzlənməsinə, logistik dəstəyə və hərbi təlimlərin keçirilməsinə xərclənəcək. Vaşinqton həmçinin ölkəyə kəşfiyyat dəstəyi göstərməkdə davam edəcək. Bu ərəfədə ABŞ Sahil Mühafizəsinin Ukraynaya iki kater verdiyi məlum olmuşdur.

## Çində 9 məktəblinin qatili edam olundu



Çin Ali Xalq Məhkəməsi doqquz məktəblinin qatilinin edam olunmasına icazə vermişdir. Bu barədə Şensi əyalətinin Yuylin şəhər məhkəməsinin məlumatında bildirilir. Bundan əvvəl məhkəmə məktəblilərin qətlinə görə 28 yaşlı Çjao Szeveyi ölüm cəzasına məhkum etmişdi.

Dərc olunmuş bəyanatda deyilir ki, "işə baxıldıqdan və Ali Xalq Məhkəməsinin sanksiyası verildikdən sonra bilərəkdən qətl törətmiş Çjao Szevey barəsində ölüm hökmü sentyabrın 27-də icra edilmişdir".

Xatırladaq ki, hücum bu il aprelin 27-də Şensi əyalətinin Yuylin şəhərinin Miçji qəzasında uşaqlar məktəbdən evə qayıdarkən baş vermişdir. Əvvəllər bu məktəbdə təhsil almış Çjao Szevey qarşısına ilk çıxan məktəblilərə hücum etmişdir. Dindirilmə zamanı o öz hərəkətini təhsil aldığı zaman alçaldıldığına görə qisasla əsaslandırmışdır. Hücum nəticəsində 9 məktəbli həlak olmuş, 12-si yaralanmışdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisi Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, Hüseynbala Mirələmov, İqbal Məmmədov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə və Aydın Hüseynov, Milli Məclis Aparatının əməkdaşları Vilayət Əlizadə, Zahid Abbasov, İsa Hüseynov və Məhəmməd Gülməmmədov Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarova atası, sabiq deputat

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisi Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, komitənin üzvləri və əməkdaşları Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarova atası

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisi İşlər müdirinin müavini Fazil Səfərəliyev Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarova atası

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8605
Sifariş 2794